مترجم باللغة الأذرية
وقف لله تعالى

ALLAH ÜÇÜN VƏQFDİR
SATMAQ OLMAZ

# هذا هو الإسلام
# İSLAM BUDUR

## QƏBİRDƏ SORUŞULAN SUALLAR

## DÖRD QAYDA

## DİNDƏN ÇIXARAN AMİLLƏRDƏN MÜSƏLMANLARI ÇƏKİNDİRMƏYİN VACİBLİYİ

ŞƏRH EDƏN:
ŞEYX HEYSƏM BİN MUHAMMƏD CƏMİL SƏRHƏN

شرح:
الشيخ هيثم بن محمد جميل سرحان

QƏBİRDƏ SORUŞULAN SUALLAR • DÖRD QAYDA • DİNDƏN ÇIXARAN AMİLLƏRDƏN MÜSƏLMANLARI ÇƏKİNDİRMƏYİN VACİBLİYİ

attasseel attasseelalelm attassee.alelmi attasseelalelm1 attasseelalelmi1

Əlaqələr:

Email: islamtorrent@gmail.com
Website: www.saarhan.net
Website: www.attasseel-alelmi.net/ar/

# ÜÇ ƏSAS VƏ ONUN DƏLİLLƏRİNİN

# ŞƏRHİ

**Muhamməd İbn Abdul-Vahhab İbn Suleyman ət-Təmimi**

**Heysəm İbn Cəmil Sərhani**

**Peyğəmbər məscidinin müəllimi**

Rəhmli və Mərhəmətli Allahın adı ilə

Həqiqətən həmd Allaha məxsusdur. Biz Ona həmd edir, Ondan kömək və günahlarımızın bağışlanmasını istəyirik. Nəfslərimizin şərindən və pis əməllərimizdən Allaha sığınırıq. Allahın doğru yola yönəltdiyini azdıran, azdırdığını isə doğru yola yönəldən olmaz. Şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur, O təkdir və ortağı yoxdur. Şahidlik edirəm ki, Məhəmməd Onun qulu və elçisidir. Bundan sonra:

## *Müqəddimə*

Bu mətnin müəllifi

İslam şeyxi və yenidən tövhidə dəvətdə fəal olan imam: Məhəmməd İbn Abdul Vahhab İbn Süleyman ət-Təmimi. Ləqəbi: Əbul Huseyn.

O, hicri tarixinin 1115-ci ilində Uyeynə şəhərində anadan olmuş, hicri tarixinin 1206-cı ilində Diriyyə şəhərində vəfat etmişdir.



*Elm tələb etməkdə başlanğıc kimi məhz bu mətnin öyrənilməsinin səbəbi*

Əhli sünnə və camaatın saleh sələfləri və alimləri bu mübarək mətnə xüsusi diqqət yetiriblər. Çünki burada elə xeyir və faydalar var ki, elm öyrənmək istəyən onları özü üçün qayda edib, bu qaydaya əsaslanır və islam elmini bunun üzərində qurur. Biz də onlardan nümunə götürürük və bu yolda onların addımları ilə addımlayırıq.

- Həmçinin siravi insanlara da bu mətni və onun əhatə etdiyi əsasları öyrənmək vacibdir. Çünki o əsaslara heç bir şübhə və şəkk olmadan qəti sürətdə inanmaq labüddür.

Bu mətn (Ümumən İslam şeyxi Məhəmməd İbn Abdul Vahhabın (Allahın rəhməti onun üzərinə olsun) kitabları) aşağıdakı məsələlərə görə seçilir:

- Asan və aydınlığı ilə
- Dəlillərə əsaslanan məsələlərin qeyd edilməsi ilə
- Məsələləri toplayıb, sıra ilə yazıb, sayını qeyd edib və bundan sonra izahını verməyə başlayıb
- Əsərlərində oxucu və dinləyicilərinə çoxlu dua edib

**ÜÇ ƏSASIN TƏRİFİ**

Qısa olaraq, üç əsasın tərifi belədir: Qəbrdə soruşulan üç sual

- Rəbbin kimdir?
- Dinin nədir?
- Peyğəmbərin kimdir?

**ÜÇ ƏSASI ÖYRƏNMƏKDƏ NƏ KİMİ SƏMƏRƏ VARDIR?**

Həqiqətən də, bu üç əsasıı öyrənib, ona əməl edib, ona dəvət edib və səbr edən şəxs Allahın izni ilə qəbrdəki suallara cavab vermiş olar.


ÜÇ ƏSASIN MÜNDƏRİCATI
Bu mətn beş fəsilə bölünür:
1. Dörd məsələ
2. Üç məsələ
3. Tövhidi öyrənməyin əhəmiyyəti
4. Üç əsas
5. Son

Rəhmli və Mərhəmətli Allahın adı ilə,

1. Bil ki, Allah sənə rəhm etsin.
2. Həqiqətən də bizə dörd məsələni öyrənmək vacibdir.

Birincisi: Elm.
Elm: Allahı, Onun peyğəmbərini (ALLAhın salavat və salamı onun üzərinə olsun) və İslam dinini dəlilləri ilə bilməkdir.
İkinci: Ona əməl etməkdir (3).

## Fəsil 1. DÖRD MƏSƏLƏ

- 1. Elm
- 2. Əməl
- 3. Dəvət
- 4. Bu yoldakı əziyyətlərə səbr etmək

## Fəsil 2. ÜÇ MƏSƏLƏ

- 1. Rububiyyət tövhidi və Ad və Sifətlər tövhidi
- 2. Uluhiyyət tövhidi
- 3. Şərik qoşmaqdan və şəri qoşanlardan uzaq olmaq

## Fəsil 3. TÖVHİDİ ÖYRƏNMƏYİN ƏHƏMİYYƏTİ

"Tövhidi niyə öyrənirik?" – sualına cavab

## Fəsil 4. ÜÇ ƏSAS

QISA OLARAQ, ÜÇ ƏSAS QƏBRDƏ SORUŞULAN SUALLARDIR

- Rəbbin kimdir?
- Dinin nədir?
- Peyğəmbərin kimdir?

## Fəsil 5. SON

Müəllifin (Allahın rəhməti onun üzərinə olsun) "İnsanlar öləndən sonra dirildiləcəklər" sözündən başlayaraq mətnin sonuna qədər olan hissəsi.

## BİRİNCİ FƏSİL:  DÖRD MƏSƏLƏ

**1. Müəllifin mətni Allahın adı ilə başlamasının səbəbi**

- 1. Allahın kitabının, peyğəmbər və elçilərinin (Allahın salamı onların üzərinə olsun) yolu ilə gedərək
- 2. Öz risalə və əsərlərini adətən Allahın adı ilə başlayan özündən əvvəlki alim və sələflərdən nümunə götürərək
- 3. Kərim olan Allahın adı ilə daha da bərəkətli olması üçün.

2. Müqəddimədə də qeyd etdiyimiz kimi, müəllif adəti üzrə elm öyrənən oxucu üçün dua edərək başlayır və Allahdan onun üçün rəhmət diləyir. Belə etməsi isə aşağıdakı səbəblərə görədir:

- Əhli sünnə və camaat alimlərinin tələbələrinə qarşı rəhmli olmasına görə
- İslam dini əslən rəhmət üzərində qurulmasına görə

Elm: *Həqiqəti dəlilləri ilə bilməkdir və elmin əksi isə cəhalətdir.*

1. Elmlə əməl arasındakı əlaqədən danışarkən deyilir ki, *elm əməli çağırır və əgər əməl cavab vermirsə, elm onu tərk edib gedir*. Əmələ bağlı olmayan elmdə heç bir fayda yoxdur. Əgər elm öyrənirsənsə, ona əməl etməyin vacib olur, əks halda, yəhudilərə bənzəmiş olursan. Çunki yəhudilərin elmi var idi, lakin əməlləri yox idi. ❈*Kitab (Tövrat və İncil) verdiyimiz şəxslər onu (Muhəmmədi) öz oğullarını tanıdıqları kimi tanıyırlar. (Buna baxmayaraq) onların bir qismi, şübhəsiz ki, həqiqəti bilə-bilə gizlədir.* ❈*(Bəqərə 146)*.Alovda alışacaq ilk üç sinifdən biri də elm öyrənib ona əməl etməyən alimdir.

Elminə əməl etməyən alim,
Bütpərəstdən əvvəl əzab görəcək.

Üçüncü: Dəvət

Dəvəti şərtlər və qaydalar üzərində aparmaq vacibdir ki, bunlardan da ən mühümləri aşağıdakılardır:

1. İxlasla yəni səmimi, Allah üçün olmalıdır.
2. Sünnə və elm əsasında olmalıdır.
3. Hikmətli olmalıdır.
4. Dəvət olunan şəxsin halı nəzərə alınmalıdır.
5. Dəvət yolunda səbr etməkdir.

## BU ŞƏRTLƏRƏ SÜBUT

Pak və müqəddəs olan Allah deyir: *❈(Ya Rəsulum!) De: "Bu mənim (təbliğ, dəvət) yolumdur. Mən və mənə tabe olan (möminlər) açıq-aşkar bir dəlillə (insanları) Allaha çağırırıq. Allah pakdır, müqəddəsdir (bütün eyib və nöqsanlardan xalidir, Onun heç bir şəriki yoxdur). Mən isə müşriklərdən deyiləm!"❈ (Yusif 108)*

Yuxarıda qeyd olunan *❈(Ya Rəsulum!) De: "Bu mənim (təbliğ, dəvət) yolumdur❈*deyildikdə Allahın Elçisinin (Allahın salamı onlun üzərinə olsun) bizə çatdırdığı şəriət nəzərdə tutulur. Ayədə keçən "səbil" sözü yol deməkdir. *❈ Allaha çağırırıq❈*- Allaha dəvət edən dəvətçi səmimi olaraq insanları Allaha çağırır. *❈ açıq-aşkar bir dəlillə❈*- burada dəlil elm deməkdir və aşağıdakıları özündə şamil edir:

1 - İslam elmi

2 - Dəvət olunanın halı

3 - Məqsədə çatmaq üçün tutulan yol

Sanki müəllif (Allahın rəhməti onun üzərinə olsun) demək istəyir ki, elm öyrənib sonra ona əməl edirsənsə, sənə səhabələr və sələflərin yolu ilə getmək mütləqdir. O zaman bu ayəyə *❈(Ya Rəsulum!) De: "Bu mənim (təbliğ, dəvət) yolumdur. Mən və mənə tabe olan (möminlər) açıq-aşkar bir dəlillə (insanları) Allaha çağırırıq❈* əsasən dəvət aparmaq sənə də vacib olur.

Dördüncü:Bu yoldakı əziyyətlərə səbr etmək(1)

Buna dəlil pak və müqəddəs olan Allahın bu sözüdür: *❋And olsun axşam çağına ki, insan ziyan içindədir. Yalnız iman gətirib yaxşı əməllər edən, bir-birinə haqqı tövsiyə edən və səbri tövsiyə edən kimsələrdən başqa!❋*

1. Dəvətdən sonra müəllif (Allahın rəhməti onun üzərinə olsun) səbri qeyd edir və sanki o sənə deyir: “Həqiqətən də bu yol ilə gedən şəxsin başına işlər gələcək, necə ki,elçilər və peyğəmbərlərin (Allahın salamı onların üzərinə olsun) başına gəlmişdir. O zaman Səbrli olmaq lazımdır.

SƏBR

Lüğəvi mənası: *Həbs etmək* deməkdir.

Şərii mənası: Hər hansı bir şeyin *üzərində və nədənsə özünü həbs etmək (saxlamaq).*

İmam İbn Qeyyim əl-Cövziyyə (Allah onu bağışlasın) səbri üç qismə bölür:

1. Allaha itaət etməkdə səbr etmək

2. Allaha asi olmaqdan çəkinməkdə səbr etmək

3. Allahın acı qədərinə səbr etmək

2. Müəllif (Allahın rəhməti onun üzərinə olsun) dördüncü məsələni də qeyd etdikdən sonra Qurani-Kərimdən buna dəlil gətirir. Bu da Əsr surəsidir. Müəllif (Allahın rəhməti onun üzərinə olsun) daim məsələləri dəlilləri ilə gətirir. Nə üçün?

1 - Elm öyrənənin təqlid ilə deyil, dəlillə getməsi üçün

2 - Elm öyrənənin əks çıxana qarşı əlində sübutu olması üçün

3 - Elm öyrənənin sağlam əsaslar üzərində dəlilləri ilə düzgün hökmlər çıxartmaqda gücü çatması üçün

1. İmam Şafinin (Allahın rəhməti onun üzərinə olsun) demək istədiyi odur ki, elə tək bu surə özü insanlar üçün sübut kimi kifayət edir ki, onlar öyrənib, əməl edib, dəvət edib və səbr etsinlər.

Bəs o zaman Qurani-Kərimin qalan surələri necə? Ümumiyyətlə Qurani-Kərim bütünlüklə sübutdur.

2. Hədis elmində möminlərin əmiri "Səhih Buxari" kitabında başlıqlardan birini belə adlandırıb: "Söz və əməldən öncə elm fəsli" və sonra dəlilini qeyd edib. Söz və əməldən öncə elmin birinci olması vacibdir. Elmsiz əməl etmək düzgün deyil, əks halda bu xaçpərəstlərə bənzəmək olur.

İmam Şafi (Allahın rəhməti onun üzərinə olsun) demişdir: "Allah bu surədən başqa sübut endirməsəydi belə, bu surə kifayət edərdi"(1).

İmam Buxari (Allahın rəhməti onun üzərinə olsun) demişdir: "Fəsil: Söz və əməldən öncə elmdir".

Buna dəlil pak və müqəddəs olan Allahın bu sözüdür: ❈*(Ya Rəsulum!) Bil ki, Allahdan başqa heç bir (haqq) tanrı yoxdur. (Ondan) həm öz günahlarının, həm də mömin kişi və qadınlarının günahlarının bağışlanmasını dilə.* ❈

Burada söz və əməldən öncə elm qeyd olundu(2).

# İKİNCİ FƏSİL: ÜÇ MƏSƏLƏ

Allah sənə rəhm etsin, bil ki, bu üç məsələni bilmək və onlara əməl etmək hər bir müsəlman kişi və qadına vacibdir (1).

1. Müəllif mətnin bu hissəsini elm öyrənənə dua etməklə başlayır.
Müəllif (Allahın rəhməti onun üzərinə olsun) Üç əsas kitabında elm öyrənənə üç yerdə dua edir: Dörd məsələ fəslinin başlanğıcında, sonra bu fəsildə - Üç məsələ fəslində. Üçüncü də: "Bil ki, Allah səni ona itaət etməkdə düz yola yönəltsin, həqiqətən də hənif din- İbrahimin dinidir".

## ÜÇ MƏSƏLƏNİN İZAHINI VERMƏDƏN ÖNCƏ MÜQƏDDİMƏ

**Tövhid**

- Lüğəvi mənası: "Təkləşdirmək" felinin məsdəridir. Nəyisə tövhid etmək, yəni onu təkləşdirmək (yeganə etmək) deməkdir.
- Şəii mənası: Pak və müqəddəs olan Allahı, Ona aid olan rübubiyyətdə, uluhiyyətdə, ad və sifətlərdə təkləşdirməkdir.

**Tövhid üç qismə bölünür:**

- Rububiyyət tövhidi
  Uca Allahın işlərində (etdiklərində) Onu təkləşdirmək deməkdir. Yəni, ***yaratmasında***, ***sahib olmasında*** və ***idarəçiliyində*** tək olması deməkdir.
- Uluhiyyət tövhidi
  Uca Allaha ibadət etməkdə Onu təkləşdirmək deməkdir.
- Ad və Sifətlər tövhidi
  Uca Allahın Kitabında və peyğəmbərinin dilində Özünü adlandırdığı adlarda və vəsf etdiyi vəsflərdə Onu təkləşdirmək deməkdir.

❖ Ad və sifətlər ***Tövqifidir***. Yəni Qurani-Kərim və Peyğəmbərimizin (Allahın salavat və salamı onun üzərinə olsun) sünnətində varid olduğu çərçivədədir və orada yeni fikirlər yürütmək yol verilməzdir. Beləliklə də bu:

- *Pak və müqəddəs olan Allahın Öz kitabında Özü barəsində təsdiq etdiyi və yaxud Peyğəmbərin (Allahın salavat və salamı onun üzərinə olsun) Onun barəsində təsdiq etdiyi Ad və Sifətləri olguğu kimi təsdiq etməklə;*
- *Həmçinin, Pak və müqəddəs olan Allahın Öz kitabında Özü barəsində inkar etdiyi və ya Peyğəmbərin(Allahın salavat və salamı onun üzərinə olsun) Onun barəsində inkar etdiyi xüsusiyyətləri olduğu kimi inkar etməklə olur.*

Məsələn: ❊*O nə mürgü, nə də yuxu bilər.* ❊*(Bəqərə surəsi, 255)*, ❊*və Bizə heç bir yorğunluq da üz vermədi.* ❊ *(Qaf surəsi, 38)*. Bunları heç bir ***təhrif (yozum) vermədən, inkar etmədən (təatil), keyfiyyət vermədən (təkyif)*** və ***bənzətmədən (təmsil)*** etmək lazımdır.

Birinci: Həqiqətən bizi Allah yaradıb, bizə ruzini O verir və bizi öz başına buraxmayıb, bizə Peyğəmbər göndərib. Kim ona itaət edərsə, cənnətə daxil olar və kim ona asi olarsa, cəhənnəmə daxil olar. Buna dəlil Allahın bu sözüdür: ❊ *Həqiqətən Biz- Firona peyğəmbər göndərdiyimiz kimi- sizə də (qiyamət günü Allahın hüzurunda) şahidlik edəcək peyğımbər göndərdik. Firon o peyğəmbərə (Musa) asi oldu və Biz də onu şiddətli əzabla yaxaladıq (həm özünü, həm də onunla birlikdə olanları suda boğduq).* ❊(1)

QISA OLARAQ ÜÇ MƏSƏLƏ

Birinci məsələ: Rububiyyət və Ad və Sifətlər tövhidi

İkinci məsələ: Uluhiyyət tövhidi

Üçüncü məsələ: Şirk və şirk qoşan camaatdan uzaq olmaq

1. Birinci məsələdə müəllif (Allahın rəhməti onun üzərinə olsun) rububiyyət və ad və sifətlər tövhidini gətirir. Həqiqətən də Allah bizi yaradıb – yaradan Odur. Bizə ruzi verib – ruzi verən Odur. Bizi öz başına buraxmayıb– yəni əmrlər və qadağalar qoyub və bizə peyğəmbər göndərib.

Uca Allahın peyğəmbərlər (Allahın salamı onların üzərinə olsun) göndərməsində qayəsi:

**İnsanlar üçün bəhanənin aradan qalxması:** ❊Biz peyğəmbər göndərməmiş (heç bir ümmətə) əzab vermərik.❊ (İsra surəsi, 15)

**Rəhmət:** ❊Səni də (ya Rəsulum!) aləmlərə (bütün insanlara və cinlərə) ancaq bir rəhmət olaraq göndərdik .❊ (Ənbiya surəsi 107)

İkincisi: Həqiqətən də Allah Ona ibadətdə Onunla birgə heç kəsin ortaq (şərik) qoşulmasına razı qalmaz. İstər yaxın mələk olsun, istərsə də göndərilmiş bir elçi. Bunun dəlili uca Allahın bu sözüdür: ❈*Şübhəsiz ki, (bütün) məscidlər Allaha məxsusdur. Allahdan başqa heç kəsə ibadət etməyin.* ❈ *(Cin surəsi, 18)*

İkinci məsələnin mövzusu  Uca Allahın uluhiyyət tövhidinin təsdiq olunmasıdır.

Müəllif (Allahın rəhməti onun üzərinə olsun) deyir: "Həqiqətən də Allah Ona ibadətdə heç kəsin ortaq (şərik) qoşulmasına razı qalmaz" – burada "heç kəsin" sözü ərəb dilində qeyri-müəyyənlikdədir və ümumən hər bir şeyi əhatə edir, istər peyğəmbər, istər Allah dostu, istər cin, istər mələk və ya saleh bir kəs, istərsə də başqası, kim olursa olsun- heç kəsin ona şərik olmasına razı deyil.

Buna dəlil uca Allahın bu sözüdür: ❈ *Şübhəsiz ki, (bütün) məscidlər Allaha məxsusdur. Allahdan başqa heç kəsə ibadət etməyin.* ❈ (Cin surəsi, 18).

Burada "məscidlər" sözü üç cür izah edilir ki, onların hər üçü də düzgündür:

1 - İçində Allaha ibadət etmək üçüm tikilən məscidlər

2 - Səcdə edən bədən üzvləri

3 - Yer (Mənə yer üzü məscid və təmiz qılındı)

Həmçinin bu ayədə də ❈ *Allahdan başqa heç kəsə ibadət etməyin.* ❈ - burada "heç kəsə" sözü ərəb dilində qeyri-müəyyənlikdədir və ümumən hər bir şeyi əhatə edir. Buna görə də Müəllif (Allahın rəhməti onun üzərinə olsun) İkinci məsələ bəhsinin əvvəlində "Həqiqətən də Allah Ona ibadətdə heç kəsin ortaq (şərik) qoşulmasına razı qalmaz" cümləsini qeyd edib, yəni nə olursa olsun, istər elçi, istər vəli, cin və ya saleh bir şəxs.

Üçüncü məsələdə müəllif (Allahın rəhməti onun üzərinə olsun) şərik qoşmaq və şərik qoşanlardan uzaq olmağın vacibliyini qeyd edir.




1- **Qəlb ilə** - kafirlərə, onların bayram və mərasimlərinə, xüsusilə də onların şərik qoşmaqlarına və uydurmalarına nifrət etmək.
2- **Dil ilə** - *❈Mən sizin ibadət etdiklərinizdən (bütlərdən) tamamilə uzağam❈ (Zuxruf surəsi, 26)*, *❈Siz də mənim ibadət etdiyimə (Allaha) ibadət etməzsiniz!*Mən sizin ibadət etdiklərinizə ibadət edən deyiləm!* Siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz! ❈ (Kafirun surəsi, 3, 4, 5).*
3- **Bədən üzvləri ilə**- onların mərasim və ayinlərində iştirak etməmək, geyimdə və ya inanclarında onlara bənzəməmək.

Üçüncü: Peyğəmbərə(Allahın salavat və salamı onun üzərinə olsun) tabe olan və Allahı təkləşdirən hər bir kəs, hətta ən yaxın qohumu olsa belə, Allaha və Peyğəmbərinə qarşı çıxan biri ilə dostluq edə bilməz. Buna dəlil Uca Allahın bu sözüdür: *❈(Ya Peyğəmbər!) Allaha və axirət gününə inanan heç bir tayfanın Allah və Onun Peyğəmbəri əleyhinə çıxanlarla – öz ataları, oğulları, qardaşları, yaxın qohumları olsalar belə - dostluq etdiyini görməzsən. Onlar elə kimsələrdir ki, Allah onların qəlblərinə iman yazmış və Öz dərgahından onlara ruh (güc) vermişdir (iman, hidayət nuru əta etmişdir). (Allah) onları (ağacları) altından çaylar axan cənnətlərə daxil edəcəkdir. Onlar orada əbədi qalacaqlar. Allah onlardan, onlar da Allahdan razıdırlar. Onlar Allahın firqəsidirlər (Allahın dininə kömək edən kimsələrdir). Bilin ki, Allahın firqəsi məhz onlar nicat tapıb (əbədi) səadətə qovuşanlardır.❈ (Mücadilə surəsi, 22).*

# ÜÇÜNCÜ FƏSİL: TÖVHİDİ ÖYRƏNMƏYİN ƏHƏMİYYƏTİ

*Allah Ona itaət etməkdə səni düz yola yönəltsin, bil ki: Həqiqətən də İbrahimin dini* ***hənif dinidir****. Yəni, səmimi olaraq yalnız Allaha ibadət etməkdir. Allah bütün insanlara bunu əmr edib və bu məqsəd üçün onları yaradıb. Necə ki, Uca Allah deyir: ❈Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım!❈ (Zəriyat surəsi, 56) (1). Burada "ibadət etmək" "təkləşdirmək" mənasındadır (2).*

***Allahın əmr etdiyi ən əzəmətli şey tövhiddir:*** *yəni ibadətdə Allahı təkləşdirməkdir (3).*

***Allahın çəkindirdiyi ən böyük şey isə şərik qoşmaqdır:*** *Yəni, Allahla birgə başqasını çağırmaqdır.*

**Hənif dini**

- Lüğəvi mənası: "hənif" sözündən götürülmüşdür ki, bu da *meyl etmək* deməkdir.
- Şərii mənası: Şərik qoşmaqdan uzaqlaşıb ixlasa, Allahı təkləşdirməyə və imana meyl edən din deməkdir. ❈*Allaha muti, batildən haqqa tapınan*❈ *(Nəhl surəsi, 120)* - yəni şərik qoşmağa arxa çevirib Allaha üz tutmaq; Hənif də o kəsdir ki, daim Allahı təkləşdirməyə qayıdır və şərik qoşmaqdan uzaq olur.

3. Burada müəllif (Allahın rəhməti onun üzərinə olsun) tövhidi öyrənməyimizin səbəbini açıqlayır. Bunun əhəmiyyətini əvvəldə qeyd etmişdik (bax səhifə 2).

**Tövhidin tərifi: əvvəldə də qeyd edildiyi kimi:**

- Lüğəvi mənası: "Təkləşdirmək" felinin məsdəridir. Nəyisə tövhid etmək, yəni onu təkləşdirmək (yeganə etmək) deməkdir.
- Şərii mənası: Pak və müqəddəs olan Allahı, Ona aid olan rübubiyyətdə, uluhiyyətdə, ad və sifətlərdə təkləşdirməkdir.

2). Müəllif deyir: "Burada "ibadət etmək" "təkləşdirmək" mənasındadır." – bu da İbn Abbasın (Allah ondan da atasından da razı olsun) sözüdür. İbn Abbas (Allah ondan da atasından da razı olsun) deyib: "Qurani-Kərimdə bütün ibadətlərin mənası tövhiddir (təkləşdirməkdir)." ❈Allaha ibadət edin❈yəni Allahı təkləşdirin,❈Ey insanlar! Rəbbinizə ibadət edin❈ yəni - ey insanlar, Rəbbinizi təkləşdirin.

## DÖRDÜNCÜ FƏSİL : ÜÇ ƏSAS

1. Müəllif (Allahın rəhməti onun üzərinə olsun) üç əsas mövzusunu qeyd etməklə başladı ki, bu da qəbrdə soruşulan üç sualı təmsil edir. O, sual verməklə oxucu və ya dinləyicinin diqqətini cəlb etdi və sonra da özü bu suallara cavab verdi.
2. Müəllif (Allahın rəhməti onun üzərinə olsun) birinci əsası açıqlayır və bildirir ki, Rəbb və ibadətə layiq olan yalnız Allahdır. O, dəlil olaraq Uca Allahın bu sözünü qeyd edir: ❊Həmd (şükür və tərif) olsun Allaha– aləmlərin Rəbbinə❊ (Fatihə surəsi, 2). Rəbb ibadət olunandır.

❊Həmd (şükür və tərif) olsun Allaha – aləmlərin Rəbbinə❊ ayəsində tövhidin hər üç növü var:

- ❊Həmd❊- burada *ad və sifətlər* tövhidinə sübut var.
- ❊Allaha❊- burada *uluhiyyət* tövhidinə sübut var.
- ❊Rəbbinə❊- burada *rububiyyət* tövhidinə sübut var.

3. Burada o qəsd olunur ki, Allahdan başqa hər şey yaradılmışdır və bir halda ki mən də yaradılmışam onda gərək Himayədar və Lütfkar olan Yaradana şükr edəm.

Səndən soruşulanda ki, insanın bilməsi vacib olan üç əsas nədir?

De ki, Qulun Rəbbini, dinini və Peyğəmbəri Məhəmmədi (Allahın salavat və salamı onun üzərinə olsun) tanımasıdır (1).

Səndən soruşulanda ki, Rəbbin kimdir? Cavab ver ki, Rəbbim məni və bütün *aləmləri* nemətləri ilə bəsləyən Allahdır və mənim üçün Ondan başqa haqqı ilə ibadətə layiq olan məbud yoxdur. Buna dəlil Uca Allahın bu sözüdür: *❊Həmd (şükür və tərif) olsun Allaha – aləmlərin Rəbbinə❊ (Fatihə surəsi, 2)* (2).

Allahdan başqa nə varsa hamısı aləmdir və mən də bu aləmin bir parçasıyam (3).

Səndən soruşulanda ki,Rəbbini necə tanıdın? Cavab ver ki, ayələri və yaratdıqları ilə. Ayələrinə misal: gecə və gündüz, günəş və aydır. Yaratdıqlarına misal isə: yeddi qat səma və yeddi qat yer və onların içində və arasında olanlar. Buna dəlil Uca Allahın bu sözüdür: ❈*Gecə və gündüz, günəş və ay Onun (vəhdaniyyətinə, qüdrət və əzəmətinə dəlalət edən) əlamətlərindəndir. Günəşə və aya səcdə etməyin, onları yaradan Allaha səcdə edin! Əgər Ona ibadət edirsinizsə (heç bir şərik qoşmadan ibadət edin)!* ❈ *(Fussilət surəsi, 37).*Həmçinin: ❈*Doğrudan da, Rəbbiniz göyləri və yeri altı gündə yaradan, sonra da Ərşə ucalan Allahdır. O, gündüzü sürətlə təqib edən gecə ilə örtüb bürüyür. Günəşi, ayı və ulduzları Öz əmrinə tabe edən də Odur. Əslində, yaratmaq da, əmr etmək də Ona məxsusdur. Aləmlərin Rəbbi Allah nə qədər xeyirxahdır.*❈ *(Əraf surəsi, 54)* (1). Rəbb ibadət olunandır və buna dəlil Uca Allahın bu sözüdür: ❈*21.Ey insanlar! Sizi və sizdən öncəkiləri yaratmış Rəbbinizə ibadət edin ki, bəlkə Allahdan qorxasınız.*

*22. O, sizin üçün yer üzünü döşəmə, göyü isə tavan etdi Göydən su endirib onunla sizin üçün növbənöv məhsullardan ruzi yetişdirdi. Siz də bunu bildiyiniz halda heç kəsi Allaha tay tutmayın.*

❈ *(Bəqərə surəsi, 21, 22)*(2).

İbn Kəsir (Allahın rəhməti onun üzərinə olsun) demişdir: “İbadətə yalnız bu şeylərin yaradıcısı layiqdir”(3).

1. Müəllif (Allahın rəhməti onun üzərinə olsun) Allahın mövcudluğuna dəlalət edən *Kovni* ayələrini -*Məxluqatı* qeyd edir. Bu ayələr sübut edir ki, Allahdan başqa rəbb, yaradan və haqqı ilə ibadət olunan məbud yoxdur. Mətndə də qeyd olunduğu kimi Qurani-Kərimdən buna dəlillər gətirilir.
Hər bir məxluq Pak və Müqəddəs Allahın mövcudluğuna dəlalət edir. Şeyxulİslam Məhəmməd İbn AbdulVəhhab (Allahın rəhməti onun üzərinə olsun) ayə və məxluqatları fərqləndirir, çünki ayələr dəyişir. Buna misal olaraq gecə və gündüzü misal gətirmək olar. Dəyişən bir şey dəyişməyəndən daha qüvvətli dəlildir.
2. Bu ayələr Bəqərə surəsindəndir. Bəzi alimlər demişlər ki, Qurani-Kərimdə insanlara xitab olunan ilk ayə məhz bu ayədir.❈Ey insanlar!❈və ilk əmr də burada olunur ❈ibadət edin!❈yəni təkləşdirin. Qurani-Kərimdə ilk qadağa da məhz bu ayədə keçir ❈*Siz də bunu bildiyiniz halda heç kəsi Allaha tay tutmayın*❈ yəni şərik qoşmaq qadağan olunur.
3. Yəni Allahı rububiyyət tövhidində təkləşdirənə vacibdir ki, uluhiyyət tövhidində də Onu təkləşdirsin.

Müəllif İbn Kəsirin sözündən sonra Qurani-Kərimdən qəlblə və bədən üzvləri lə olan ibadətlərdən bir neçəsini dəlilləri ilə qeyd edir. Onlar aşağıdakılardır:

**Dua iki yerə** bölünür:

**İbadət duası**

Bu, hərəkətə bağlı olan duadır. Məsələn: Namaz, oruc, həcc kimi.

Bu dua növünün Allahdan başqasına edilməsi *böyük şirkdir*.

**İstək duası**

Bu, sözlə olan duadır. Məsələn: " Allahım məni bağışla!", "Mənə rəhm et!" demək kimi.

Bu dua növünün Allahdan başqasına edilməsinin hökmü ilə bağlı isə müəyyən *izahatlar* mövcuddur. İstək duasının özü iki yerə bölünür.

Allahın bizə əmr etdiyi ibadət növlərindən *İslam*, *İman* və *Ehsanı* göstərmək olar (1). Onlardan da **Dua**, **Qorxu**, **Ümid**, **Təvəkkül**, **İstək**, **Rahbə qorxusu, Mütilik (xuşu), Xaşyə qorxusu, İnabə,Yardım istəmək**, **Sığınmaq**, **Yalvarmaq**, **Qurban kəsmək**, **Nəzir vermək** və bu kimi Allahın əmr etdiyi başqa ibadətləri göstərmək olar. Bunların hamısı Allah üçündür. Buna dəlil Uca Allahın bu sözüdür: *❈Şübhəsiz ki, (bütün) məscidlər Allaha məxsusdur. Allahdan başqa heç kəsə ibadət etməyin! ❈ (Cinn surəsi, 18).* Kim bunlardan hər hansı birini Allahdan qeyrisi üçün edərsə, şərik qoşan kafir sayılır. Buna da dəlil Uca Allahın bu sözüdür: *❈Kim Allahla yanaşı başqa bir tanrıya ibadət edərsə - bunun üçün isə onun heç bir dəlili yoxdur – (qiyamət günü) onun cəzasını Rəbbi özü verəcəkdir. Həqiqətən, kafirlər nicat tapmazlar! ❈ (Muminun surəsi, 117).* Hədisdə də deyilir ki, Dua ibadətin özülüdür. Həmçinin Uca Allahın bu sözü də dəlildir: *❈Rəbbiniz buyurdu: "Mənə dua edin, Mən də sizin dualarınızı qəbul edim! (Məni çağırın, harayınıza yetişərəm, yaxud yalnız Mənə ibadət edin, sizi mükafatlandıraram!) Mənə ibadət etməyi təkəbbürlərinə sığışdırmayanlar Cəhənnəmə zəlil olaraq girəcəklər! ❈ (Ğafir surəsi, 60).*




Əgər inanırsansa ki, istədiyin şəxs hər şeyi özü edir, xeyirli olanı o nəsib edir və zərərli olanı o kənarlaşdırır, bu artıq ***böyük şirkdir***.

- Qeyd:

*Biz əməlin hökmünü öyrənirik, lakin o əməli edənin hökmünə gəldikdə isə lazımlı sübutlar ilə həmin şəxsin **bəhanələrini** və onda olan **şübhələri** aradan qaldırmaq lazımdır.*

*Əməlin sahibini mühakimə etmək isə, yəni onun mömin və ya kafir olmasına hökm vermək **yalnız alimlərin** vəzifəsidir.*




- "Dua ibadətin özülüdür" hədisi zəifdir. Səhih olan isə Peyğəmbərin (Allahın salavat və salamı onun üzərinə olsun) bu sözüdür: "Dua ibadətdir".

## *Necə olur ki, dua ibadət olur?*

❈Rəbbiniz buyurdu: "Mənə dua edin, Mən də sizin dualarınızı qəbul edim! (Məni çağırın, harayınıza yetişərəm, yaxud yalnız Mənə ibadət edin, sizi mükafatlandıraram!) Mənə ibadət etməyi təkəbbürlərinə sığışdırmayanlar Cəhənnəmə zəlil olaraq girəcəklər!❈ (Ğafir surəsi, 60) – ayəsindəki Pak və Müqəddəs olan Allahın ❈Mənə ibadət etməyi❈sözü dəlildir ki, dua ibadətdir.

***Qorxuya*** dəlil Uca Allahın bu sözüdür: *❋Siz onlardan qorxmayın! Əgər möminsinizsə, Məndən qorxun!❋ (Ali İmran surəsi, 175)*(1).

***Ümidə*** dəlil isə Uca Allahın bu sözüdür: *❋Kim Rəbbi ilə qarşılaşacağına (qiyamət günü dirilib haqq-hesab üçün Allahın hüzurunda duracağına) ümid bəsləyirsə (yaxud qiyamətdən qorxursa), yaxşı iş görsün və Rəbbinə etdiyi ibadətə heç kəsi şərik qoşmasın!"❋ (Kəhf surəsi, 110)* (2).

**Qorxu:** Qorxu - həlak, zərər və əziyyətin baş verməsi üçün təlaşlanmaqdır. Pak və Müqəddəs olan Allah şeytanın dostlarından qorxmağı qadağan edib və yalnız Ondan qorxmağı əmr etmişdir.




***Ümid***: İnsanın yaxın gələcəkdə və ya ona yaxın gələcək kimi görünən uzaq gələcəkdə bir işin olmasını çox istəməsidir.

Ümid Allah qarşısında zəlil olmaq və boyun əymək kimi sifətləri özündə ehtiva edir.Ümidin Allahdan başqasına edilməsi şirkdir.

***Bəyənilən ümid*** yalnız Allaha *itaət edərək ondan savab qazanacağına* ümid bəsləməklə və ya *asilikdən tövbə edərək tövbəsinin qəbul olacağına* ümid bəsləməklə olur. Əməlsiz ümid isə xəyala qapılmadır və məzəmmət olunan istəkdir.

## 1. Təvəkkülün tərifi

- Lüğəvi mənası: Etimad etmək deməkdir.
- Şərii mənası: Allaha arxayınlıqla, səbəblərdən istifadə edərək və səmimi qəlblə etimad etmək

**Təvəkkülə** dəlil Uca Allahın bu sözüdür: ❈ *Əgər möminsinizsə, Allaha təvəkkül edin!* ❈ *(Maidə surəsi, 23)*,həmçinin ❈ *Kim Allaha təvəkkül etsə, (Allah) ona kifayət edər.* ❈ *(Taləq surəsi, 3)*(1).

***İstək, rahbə qorxusu*** və ***mütiliyə*** dəlil Uca Allahın bu sözüdür: ❈*Onlar xeyirli işlər görməyə tələsər (yaxşı əməllər etməkdə bir-birini ötməyə çalışar), ümid və qorxu ilə (rəhmətimizə ümid bəsləyib əzabımızdan qorxaraq) Bizə ibadət edirdilər. Onlar Bizə müti idilər.* ❈ *(Ənbiya surəsi, 90)* (4).

## Təvəkkülün düzgün olmasında üç şərt var:

- Pak və Müqəddəs Allaha ***səmimi qəlblə etimad etmək***
- Pak və Müqəddəs Allahın Öz vədini yerinə yetirəcəyinə ***arxayınlıqla əmin olmaq***
- ***Səbəblərdən istifadə etmək***

1. ***İstək***: Sevdiyin bir şeyə çatmağı istəməkdir.

***Rahbə qorxusu:*** Qorxulu bir şeydən çəkinməklə baş verən *səmərəli qorxudur* və bu, *əmələ bağlı* olan bir *qorxu* növüdür.

***Mütilik (xuşu):***Allahın ***kovni*** və ***şərii qədərinə*** təslim olmaqla Allahın əzəməti qarşısında zəlil və sakit olmaqdır.

❖ Pak və Müqəddəs olan Allaha doğru gedən şəxsdə həm qorxu və həm də ümid olmalıdır. Birini digərindən üstün etmək olmaz. Əgər belə olarsa, həlak olar. Qorxu və ümid sanki quşun qanadları kimi tarazlı olmalıdır.

**Xaşyə** qorxusuna dəlil Uca Allahın bu sözüdür: *❈Siz onlardan deyil, Məndən qorxun!❈* (1).

**İnəbəyə**(Allaha dönüşə) dəlil Uca Allahın bu sözüdür: *❈(Tövbə edib) Rəbbinizə dönün və Ona təslim olun❈ (Zumər surəsi, 54)* (2).

**Yardım istəməyə (İstəanə)** dəlil Uca Allahın bu sözüdür: *❈Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək istəyirik!❈ (Fatihə surəsi, 5).*Həmçinin hədisdə: *Kömək dilədikdə Allahdan dilə.*(3).

**Sığınmağa (İstəazə)** dəlil Uca Allahın bu sözüdür: *❈De: Pənah aparıram sübhün Rəbbinə❈ (Fələq surəsi, 1)* və *❈De: Pənah aparıram insanların Rəabbinə❈ (Nəs surəsi, 1 )* (4).

**Yalvarmağa (İstəğasə)** dəlil Uca Allahın bu sözüdür: *❈O zaman siz (dua edərək) Rəbbinizdən kömək diləyirdiniz. Allah da duanızı qəbul buyurmuşdu. ❈ (Ənfal surəsi, 9)* (5).

**Qurban kəsməyə** dəlil Uca Allahın bu sözüdür: *❈ 162. De: "Mənim namazım da,ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür! 163. Onun heç bir şəriki yoxdur.❈ (Ənam surəsi, 162, 163),* həmçinin sünnətdə dəlil bu sözdür:*Allahdan qeyrisinə qurban kəsəni Allah lənətləmişdir.*(6).

1. ***Xaşyə qorxusu:*** Qorxduğunun hökmranlığının əzəmətli və kamil olmasına görə *elmlə olan qorxudur*. Bu, alimlərə xas qorxu növüdür.
2. ***İnəbə***: Allaha itaət etməklə və asiliklərdən boyun qaçırmaqla Ona qayıtmaq deməkdir. ❈(Tövbə edib) Rəbbinizə dönün❈yəni Ona qayıdın, ❈və Ona təslim olun❈yəni Pak və Müqəddəs Allahın sizə əmr etdiyinə boyun əyin, təslim olun. Çünki sən qulsan, qul da öz ağasına boyun əyməlidir. Ağan isə Allahdır. Necə ki, Peyğəmbər (Allahın salavat və salamı onun üzərinə olsun) deyir: *Ağanız Allahdır*.
3. ***Yardım istəmək (İstəanaə):***kömək diləməkdir. ❈Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək istəyirik!❈ ayəsində axırda gəlməli olan sözün ("Sənə") əvvələ keçirməklə, ərəb dilində "muhasirə" mənasını verir (tərc.: yəni "yalnız" sözünün işlənməsinə səbəb olur). Yəni yalnız sənə ibadət edirik və yalnız səndən kömək diləyirik.
4. ***Sığınmaq (İstəazə):***sığınacaq istəməkdir. Bu da xoşagəlməyən bir şeydən himayə olunmaqdır. ❈Pənah aparıram❈yəni sığınıram və qorunma axtarıram.
5. ***Yalvarmaq (İstəğasə):***kömək diləməkdir. Bu da fəlakət və həlak anında xilas üçün kömək istəməkdir.

❖ Yardım istəmək, sığınmaq və yalvarmaq dörd şərtə əməl etməklə məxluqdan da istənilə bilər. Bu dörd şərt də: diri olmalı, yanında olmalı, qadir olmalı və səbəb olmalı.

6. ***Qurban kəsmək***: xüsusi tərzdə qan axıtmaqla heyvanın ruhunun bədəndən çıxarılmasıdır.

**Heyvan kəsmək üç cür olur:**

- Allah üçün kəsmək. Məsələn: Həccdə kəsilən qurban, Qurbanlıqda kəsilən qurban, Sədəqə üçün kəsilən qurban
- Allahdan qeyrisi üçün kəsmək. Məsələn: Cinlər və qəbir sahibləri üçün kəsilən qurban. Bu şərik qoşmaqdır.
- İcazəli olan: Ət üçün, qonaqlara ikram etmək və ticarət üçün kəsilən

**Nəzirə** dəlil isə Uca Allahın bu sözüdür: ❈*Onlar (Cənnətə nail olacaq müttəqilər) elə kimsələrdirlər ki, verdikləri sözü (etdikləri nəziri) yerinə yetirər və dəhşətli (aləmi) bürüyəcək (şəri hər tərəfə yayılacaq) gündən (qiyamət günündən) qorxarlar.* ❈ *(İnsan surəsi, 7)*(1).

❖ Qeyd: Qurban kəsmək məsələsində müəyyən izahatlar mövcuddur ki, bunlar Allahın izni ilə tövhid kitabında verilib.

**1. Nəzirin tərifi**

- Lüğəvi mənası: Əhd etmək
- Şərii mənası: Vacib olmayan bir şeyi özünə vacib etmək

❖ Qeyd: Nəzirin qismləri, şərtləri və kəffarəsi var və bunlar da Allahın izni ilə tövhid kitabında veriləcək.

**Nəzirin növləri:**

- Allah üçün edilən nəzir
- Allahdan qeyrisi üçün edilən nəzir

❖ Müəllifin (Allahın rəhməti onun üzərinə olsun) bu ibadətləri qeyd etməsi ibadətlərin yalnız bunlardan ibarət olması demək deyil, sadəcə olaraq misal kimi verilib. Çünki elə ibadətlər var ki, burada qeyd olunmuyıb. Əsas məqsəd odur ki, burada qeyd olunan və qeyd olunmayan ibadətlərin Allahdan qeyrisinə edilməsi Allaha şərik qoşmaqdır.

İKİNCİ ƏSAS: İslam dinini dəlilləri ilə bilmək.
İslam: ***Tövhid ilə Allaha təslim olmaq, itaət etməklə Ona boyun əymək və şirkdən və şirk əhlindən uzaq olmaqdır***.
Dinin üç mərtəbəsi var: İslam, İman və Ehsan. Hər bir mərtəbənin öz sütunları var.
Birinci mərtəbə: İslam (1).
İslamın beş sütunu var:
Allahdan başqa haqq məbudun olmadığına və Məhəmmədin onun qulu və peyğəmbəri olduğuna şəhadət gətirmək, namaz qılmaq, zəkat vermək, ramazan ayı oruc tutmaq və həcc etmək (2).

1. Sonra müəllif (Allahın rəhməti onun üzərinə olsun) ikinci əsası qeyd edir ki, bu da qulun ***dinini bilməsidir*** .Eləcə də bu hissəni İslamın tərifi ilə başlayır:

Birinci mərtəbə İslamdır.

***Tövhid ilə Allaha təslim olmaq, itaət etməklə Ona boyun əymək və şərik qoşmaq və şərik qoşanlardan uzaq olmaqdır***.

Bu İslamın tərifidir. İşlərini Uca Allaha təslim etmək İslamdır, çünki sən qulsan və qul da öz ağasına təslim olmalıdır. Peyğəmbər (Allahın salavat və salamı onun üzərinə olsun) dediyi kimi ***Ağa yalnız Allahdır***.

***Sonra dini üç mərtəbəyə bölür:***

| 1 - İslam | 2 - İman | 3 - Ehsan |
|---|---|---|

2. İslamın beş rükunu var,
Birinci rükun - Şəhadət: ***Bu, dillə etiraf etmək, qəlblə inanmaq və əzalarla təsdiq etməkdir.***

Müəllif (Allahın rəhməti onun üzərinə olsun) “Lə İləhə illə Allah” şəhadətini qeyd edir və onun mənasını açıqlayır: **Allahdan başqa haqq məbud yoxdur.**




“Yoxdur ilah” – burada inkar vardır.

“Allahdan başqa“ – burada təsdiq vardır.

Bu quruluş “məhdudlaşdırmanı” və “təsdiqi” əhatə edir. Yəni ibadəti yalnız Allaha olunmaqla məhdudlaşdırır və təsdiq edir və Ondan qeyrisinə ibadət etməyi qadağan edir.

Buna görə də müəllif (Allahın rəhməti onun üzərinə olsun) qeyd edib ki, “Bu ayə (yuxarıda qeyd edilənі) təfsir edir və izah edir”: ✵26. Yadına sal ki, bir zaman İbrahim atasına və qövmünə demişdi: “Mən sizin ibadət etdiklərinizdən (bütlərdən) uzağam.27. Yalnız məni yoxdan yaradandan (Allahdan) başqa!”.

✵Mən sizin ibadət etdiklərinizdən (bütlərdən) uzağam.✵ayəsinin mənası “Yoxdur ilah”, ✵Yalnız məni yoxdan yaradandan (Allahdan) başqa!✵ ayəsinin mənası isə “Allahdan başqa“ ünsürünə uyğundur.

Şəhadətə dəlil Uca Allahın bu sözüdür: ✵ *Allah şahidlik etdi ki, Özündən başqa heç b tanrı yoxdur. Mələklər və haqq-ədalətdən ayrılmayan elm sahibləri də O mütləq qüvvət, hikmət sahibindən başqa heç bir tanrı olmadığına şahidlik etdilər.* ✵*(Ali İmran surəsi, 18).*

Mənası: Allahdan başqa haqq məbud yoxdur.

“Yoxdur ilah” – burada bütün Allahdan başqasına ibadət olunanlara inkar vardır.

“Allahdan başqa“ – burada yalnız Allaha ibadət etməyin və Onun mülkündə heç bir şəriki olmadığı kimi, ibadətdə Ona heç bir şərikin olmamasının sübutu vardır. Uca Allahın bu sözləri bu məsələni izah edir: ✵ *26. Yadına sal ki, bir zaman İbrahim atasına və qövmünə demişdi: “Mən sizin ibadət etdiklərinizdən (bütlərdən) uzağam. 27. Yalnız məni yoxdan yaradandan (Allahdan) başqa! Şübhəsiz ki, O məni doğru yola müvəffəq edəcəkdir!” . 28. (İbarhim) onu (la ilahə illallah kəlməsini) öz nəsli arasında həmişəlik qalan bir söz etdi. Bəlkə, (Məkkə müşrikləri bütpərəstlikdən əl çəkib babaları İbrahimin dininə) qayıdalar!* ✵ *(Zuxruf surəsi, 26, 27, 28)* (2).

*❉(Ya Rəsulum!) Söylə: "Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan (fərqi olmayan) bir kəlməyə tərəf gəlin! ( O kəlmə budur: ) "Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub bir-birimizi (özümüzə) Rəbb qəbul etməyək!" Əgər onlar yenə də üz döndərərlərsə, o zaman (onlara) deyin: "İndi şahid olun ki, biz, həqiqətən, müsəlmanlarıq (Allaha təslim olanlarıq)!"❉ (Ali İmran surəsi, 64)* (1).

❖ Əgər kimsə soruşursa ki: "Allahdan başqa ilah yoxdur- şəhadətinin mənası o deməkdir ki, Allahdan başqa məbud yoxdur? ".

Cavabımız odur ki, belə demək səhvdir. Çunki belə deməklə Allahdan başqa bütün ibadət olunanlara ibadət etmək düzgün sayılır kimi çıxır. Lakin "haqq (ibadətə layiq)" sözünü əlavə etdikdə, düzgün ifadə alınır və bu da subut edir ki, Allahdan başqa haqq (ibadətə layiq) məbud yoxdur və Allahdan başqa bütün ibadət olunan ilahlar inkar edilir.

❖ Əgər kimsə soruşursa ki: "Allahdan başqa ilah yoxdur – şəhadətinin mənası o deməkdir ki, Allahdan başqa ibadətə layiq rəbb yoxdur? ".

Cavabımız odur ki, bu düzgün sözdür, lakin "Allahdan başqa haqq ilah yoxdur" şəhadətinin izahı deyil. Bu, rububiyyət tövhididir. Məhəmməd Peyğəmbərin (Allahın salavat və salamı onun üzərinə olsun) göndərildiyi kafirlər bunu qəbul edirdilər, ancaq bu onları İslam dininə salmırdı.

1. ❉(Ya Rəsulum!) Söylə: "Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan (fərqi olmayan) bir kəlməyə tərəf gəlin! ❉ayəsi dinlər arasında yaxınlaşmanın qadağan olunmasına dəlildir.

1. Müəllif (Allahın rəhməti onun üzərinə olsun) bu ayəni Məhəmmədin (Allahın salavat və salamı onun üzərinə olsun) Allahın peyğəmbəri olmasına şəhadət gətirməyə dəlil olaraq qeyd edir və bu ayədə Allah şəhadətin bu hissəsini ərəb dilinə xas olan üç ünsürlə daha da gücləndirir:

"Gizli and", "ləm hərfi" və "qad" kəliməsi.

2. Müəllif (Allahın rəhməti onun üzərinə olsun) Məhəmmədin (Allahın salavat və salamı onun üzərinə olsun) Allahın peyğəmbəri olmasına şəhadət gətirməyin mənasını açıqlayır və bildirir ki, hər bir müsəlman kişi və qadına aşağıdakıları həyata keçirməklə şəhadət gətirmək vacibdir:

*Yəni onun əmr etdiklərinə itaət etmək, xəbər verdiklərini təsdiq etmək, qadağan etdiklərindən, çəkindirdiklərindən uzaq olmaq və Allaha onun (Allahın salavat və salamı onun üzərinə olsun) qoyduğu qaydada və bəyan etdiyi şəkildə ibadət etmək.*

Məhəmmədin (Allahın salavat və salamı onun üzərinə olsun) Allahın peyğəmbəri olmasına şəhadət gətirməyin dəlili isə Uca Allahın bu sözüdür: *❈ (Ey ümmətim!) Sizə özünüzdən bir peyğəmbər gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir, o sizdən ötrü hərisdir, möminlərlə şəfqətli, mərhəmətlidir! ❈ (Tövbə surəsi, 128)*(1). Məhəmmədin (Allahın salavat və salamı onun üzərinə olsun) Allahın peyğəmbəri olmasına şəhadətin mənası ***onun əmr etdiklərinə tabe olmaq, xəbər verdiklərini təsdiq etmək, qadağan etdiklərindən, çəkindirdiklərindən uzaq olmaq və Allaha onun qoyduğu qaydada ibadət etməkdir***(2).

"Məhəmməd (Allahın salavat və salamı onun üzərinə olsun) Allahın peyğəmbəridir" şəhadəti tələb edir ki: "O, quldur, ona ibadət olunmaz və o, peyğəmbərdir, yalanlanmaz. ", yəni:

- Onun (Allahın salavat və salamı onun üzərinə olsun) əmr etdiklərinə itaət etmək- çünki bu, Allah tərəfindən buyrulur
- Onun (Allahın salavat və salamı onun üzərinə olsun) xəbər verdiklərini təsdiq etmək - O, doğru danışan və doğruluğu təsdiq olunmuşdur
- Qadağan etdiklərindən və çəkindirdiklərindən uzaq olmaq - Onun (Allahın salavat və salamı onun üzərinə olsun) qadağan etdiyi bir kənarda sən isə o biri kənarda olmalısan
- Pak və Müqəddəs Allaha Peyğəmbərin (Allahın salavat və salamı onun üzərinə olsun) buyurduğu kimi ibadət etmək- burada dinə yenilik gətirənlərə rədd vardır.

Namaz qılmaq, zəkat vermək və tövhidin izahına dəlil Uca Allahın bu sözüdür: ❈ *Halbuki onlara əmr edilmişdir ki, Allaha – dini yalnız Ona məxsus edərək, batildən haqqa (islama) dönərək – ibadət etsinlər, namaz qılıb zəkat versinlər. Doğru-düzgün din budur!* ❈ *(Bəyyinə surəsi, 5)* (1).

Oruc tutmağa dəlil Uca Allahın bu sözüdür: ❈*Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz!* ❈ *(Bəqərə surəsi, 183)* (2).

Həcc etməyə dəlil Uca Allahın bu sözüdür: ❈*Onun yoluna (ərzaq, minik, və sağlamlıq baxımından) gücü çatan hər bir kəsin həccə gedib o evi ziyarət etməsi insanların Allah qarşısında borcudur. Kim bunu (bu borcu) inkar edərsə (özünə zülm etmiş olar). Əlbəttə, Allah aləmlərə (heç kəsə) möhtac deyildir!*❈ *(Ali İmran surəsi, 97)* (3).

1. İkinci rükun namaz qılmaqdır.

***Namaz – təkbirlə (Allahu Əkbər) başlayan və salamla bitən hərəkətlər və sözlərlə müşayət olunan Allah üçün edilən ibadətdir.*** O, dinin dirəyidir. Namaz vəhy vasitəsi ilə əmr olunmayıb.Peyğəmbər (Allahın salavat və salamı onun üzərinə olsun) səmaya merac edəndə Allah tərəfindən ona birbaşa bildirilib və vacib edilib.

Üçüncü rükun zəkat verməkdir.

Lüğəvi mənası artma və təmizlənmə deməkdir.

Şərii mənası isə: ***Xüsusi qrup insanlara verilməsi vacib olan xüsusi miqdarda maldır.***

2. Dördüncü rükun oruc tutmaqdır.

Lüğəvi mənası: saxlamaq, tutmaq deməkdir.
Şərii mənası: ***Sübh namazının vaxtı girən andan günəşin batmasına qədər olan müddət ərzində özünü yemək-içməkdən saxlamaqla və niyyətlə yerinə yetirilən Allah üçün edilən ibadətdir.*** Səbrin hər üç növü bu ibadətdə cəm olunduğuna görə Oruc ən xeyirli ibadətlərdəndir və Pak və Müqəddəs Allah məhz oruc tutanın mükafatının Özü tərəfindən veriləcəyini bəyan etməsi də bu ibadətin əzəmətindən xəbər verir.

3. Beşinci rükun həcc etməkdir.

Lüğəvi mənası: hədəf və niyyət deməkdir.
Şərii mənası : Sevimli Peyğəmbər Məhəmmədin (Allahın salavat və salamı onun üzərinə olsun) yoluna uyğun olaraq müəyyən ayinlərin yerinə yetirilməsi ilə Allah üçün edilən ibadətdir. Bu ibadətin hər bir müsəlman üçün həyatında ən azı bir dəfə etməsi vacibdir.

## İkinci mərtəbə imandır

Lüğəvi mənası: “Təsdiq etmək” və “qəbul etmək” deməkdir.

Şərii mənası: ***Dillə demək, qəlblə inanmaq və əzalarla əməl etmək deməkdir. İman itaətlə artır, asiliklə azalır.***

***İmanın*** beş məsələni əhatə etməsi vacibdir. Bunlardan biri olmasa, əhli sünnə və camaat etiqadına əsasən ***iman*** hesab olunmur:

İman **sözlə**, **əməllə**, **etiqad ilə** olur, **artır** və **azalır**.

**İmanın altı rüknu var:**

- Allaha iman gətirmək
- Mələklərə iman gətirmək
- Kitablara iman gətirmək
- Peyğəmbərlərə iman gətirmək
- Axirət gününə iman gətirmək
- Qəza və qədərə iman gətirmək

İkinci mərtəbə İmandır. İmanın yetmiş artıq şöbəsi var. Ən yüksək şöbəsi “Allahdan başqa ibadətə layiq məbud yoxdur” –deməkdir və ən aşağı şöbəsi yoldan hər hansı bir maneəni qaldırmaqır. Həya da imandan bir şöbədir.

**İmanın altı rüknu var:**

Allaha, mələklərinə, kitablarına, peyğəmbərlərinə, axirət gününə və xeyri və şəri ilə qədərə iman gətirmək.

Bu altı rüknun dəlili aşağıdakı ayələrdir: *❃Yaxşı əməl heç də (ibadət vaxtı) üzünü günçıxana və günbatana tərəf çevirməkdən ibarət deyildir. Yaxşı əməl sahibi əslində Allaha, axirət gününə, mələklərə, kitaba (Allahın nazil etdiyi bütün ilahi kitablara) və peyğəmbərlərə inanan... ❃ (Bəqərə surəsi, 177).*

Qədərə imanın dəlili isə Uca Allahın bu sözüdür: *❃Şübhəsiz ki, Biz hər şeyi müəyyən ölçüdə (lazım olduğu qədər) yaratdıq. ❃ (Qəmər surəsi, 49).*

İmanın birinci rüknu Allaha iman gətirməkdir və burada dörd məsələ vacibdir:

- Pak və Müqəddəs Allahın mövcudluğuna iman gətirmək - bu məsələnin özü də dörd vasitə ilə olur:
- Rububiyyət tövhidinə iman gətirmək
- Uluhiyyət tövhidinə iman gətirmək
- Ad və sifətlər tövhidinə iman gətirmək

Ağıl ilə-

Ağıl üçün məxluqu xaliqsiz təsəvvür etmək mümkün deyil:

❈Yoxsa onlar heç bir şeydən (xaliqsiz) yarandılar?! Yaxud onlar (öz-özlərini) yaradanlardır?!❈ (Tur surəsi 35).

Hiss ilə-

Çətinlik və gərginlik anında əllərini göyə qaldırıb deyirsən: Ya Rəbb! Sonra görürsən ki, bu çətinlik Allahın izni ilə aradan qalxdı.

Fitrət ilə-

"Dünyaya gələn hər bir şəxs İslam fitrəti üzrə doğulur, sonradan isə valideynləri onu ya yəhudi, ya xaçpərəst ya da atəşpərəst edir"

Şərii dəlillərlə-

İbn Qeyyim (Allahın rəhməti onun üzərinə olsun) demişdir: "Allahın kitabında elə bir ayə yoxdur ki, onda Allahın təkliyinə dəlil olmasın"

## İkinci rükun ***mələklərə iman gətirməkdir***.

**Mələklər** – qeybi aləmdir və Allah onları nurdan yaradıb. Mələklər Allaha itaət edir və Ona qarşı heç vaxt asilik etmirlər. Onların ruhu ❈Ruhulqüds (Cəbrayıl)❈, cəsədi ❈Mələkləri iki, iki üç və dörd qanadlı yaradan Allah...❈, ağıl və qəlbləri ❈ Nəhayət, (bəzi möhtərəm zatlara şəfaət etməyə izin verildiyinə görə məhşərə gətirilənlərin) ürəklərindən o (müdhiş) qorxu çıxınca onlar (şəfaət edəcək kəslərdən, yaxud mələklərdən sevinclə): "Rəbbiniz nə buyurdu?" – deyə soruşar❈(Səba surəsi, 6) vardır. Biz ümumi olaraq onlara inanırıq. Həmçinin, Allahın bizə xəbər verdiyi mələklərin adlarına "Cəbrayıl, Mikayıl və İsrafil" kimi, onların sifətlərinə ❈Allahın onlara verdiyi əmrlərə asi olmayan, buyurduqlarını yerinə yetirən❈ (Təhrim surəsi,6), işlərinə (məsələn, ərşi daşıyırlar) həm ümumən və həm də təfsilatı ilə iman gətiririk.

## Üçüncü rükun ***kitablara iman gətirməkdir***.

Kitabların həqiqətən də *Allahın kəlamı* olub, *məcaz olmadığına*, *məxluq deyil endirilmiş olduğuna* və Allahın hər bir rəsulu ilə kitab endirdiyinə iman gətirməliyik. Buna ümumi olaraq inanırıq. Allahın bizə bildirdiyi kitabların adlarına, içindəkilərinə və hökmü ləğv olunmayan hökmlərinə iman gətiririk. Eləcə də iman gətiririk ki, Qurani-Kərim ondan əvvəlki kitabların – Tövrat, İncil, Zəbur və İbrahim və Musaya (Allahın salamı onların üzərinə olsun) endirilən səhifələrin - hökmünü ləğv edir.

## Dördüncü rükun ***peyğəmbərlərə iman gətirməkdir***.

Onların bəşər olduğuna və onların rububiyyətdə heç bir xüsusiyyətləri və vəsfləri olmadığına, qul olub onlara ibadət olunmadığına, Allahın onları göndərdiyinə və onlara vəhy endirdiyinə, onlara möcüzələr verməklə möhkəmləndirdiyinə, əmanətə sadiq olduqlarına, insanlara nəsihət etdiklərinə, Allah yolunda düzgün mübarizə apardıqlarına, Allahın onların bizə öyrətdiyi adları, sifətləri, verdikləri xəbərlərinə, ilk elçinin Adəm (Allahın salamı onun üzərinə olsun), ilk rəsulun isə Nuh (Allahın salamı onun üzərinə olsun), ən sonuncu peyğəmbər və elçinin isə Məhəmməd (Allahın salavat və salamı onun üzərinə olsun) olduğuna, Məhəmməd Peyğəmbərin (Allahın salavat və salamı onun üzərinə olsun) şəriəti ilə əvvəlki peyğəmbərlərin gətiridyi şəriətin ləğv olunmasına iman gətirməliyik. Əhzab və Şura surələrində qeyd olunduğu kimi Peyğəmbərlərdən beş ən əzəmətlisi bunlardır: Məhəmməd (Allahın salavat və salamı onun üzərinə olsun), Nuh (Allahın salamı onun üzərinə olsun), İbrahim (Allahın salamı onun üzərinə olsun), Musa (Allahın salamı onun üzərinə olsun) və İsa (Allahın salamı onun üzərinə olsun).

## Beşinci rükun ***axirət gününə iman gətirməkdir***.

Axirət gününə iman Peyğəmbərimizin (Allahın salavat və salamı onun üzərinə olsun) ölümdən sonra baş verənlər haqqında xəbər verdiyi hər bir şeyi əhatə edir. Məsələn, qəbir fitnəsi, surun üfürülməsi, insanların qəbirlərindən çıxarılması, tərəzilər, əməl dəftərləri, sirat körpüsü, hovuz, cənnət və cəhənnəm, möminlərin qiyamət günü və cənnətdə Rəblərini görmələri və qeyb aləminə xas olan digər məsələlər.

## Altıncı rükun ***xeyrin və şərin Allahdan olmasına iman gətirməkdir***.

Bu rüknun özü də dörd məsələni əhatə etməlidir:

**Elm** - Pak və Müqəddəs Allahın hər bir şeyi ümumən və xırdalıqları ilə **bildiyinə** iman gətirmək

**Yazmaq** - Qiyamətə qədər Allahın hər bir şeyi **yazdığına** iman gətirmək

**İstək**- Allahın istədiyinin olmasına və istəmədiyinin olmamasına, qulun da istəyinin olmasına lakin qulun istəyinin Allahın **istəyinə** tabe olmasına iman gətirməkdir.

**Yaradılış**- Bütün mövcud olan hər şey, onların sifətləri və hərəkətləri ilə Allah tərəfindən **yaradıldığına** iman gətirməkdir. Bunun dəlili : ❁Allah hər şeyin xaliqidir.❁ (Zumər surəsi, 62) və Halbuki sizi də, sizin düzəltdiklərinizi də Allah yaratmışdır!”❁ (Səffat surəsi, 96).

***Bu dörd məsələni şair misralarda belə toplayıb:***

*Elm, Mövlanamızın yazdığı və istəyidir*

*Yaratması - icad və formalaşdırmasıdır.*

Üçüncü mərtəbə ihsandır.

Bu dinin ən uca mərtəbəsidir və onun özünün də iki mərtəbəsi var:

Müşahidə ibadəti-

Allaha sevgi, istək və şövqlə ibadət etməkdir.

Məsələn: elçi və peyğəmbərlərin (Allahın salamı onların üzərinə olsun) ibadəti, həmçinin başqaları üçün də bu mərtəbəyə çatmaq mümkündür.

Nəzarət ibadəti-

Qorxu və çəkinmək ibadətidir. Müsəlman bu mərtəbədən kənarda qalmır.

Şərh: Müşahidə ibadəti mərtəbəsinə daxil olan şəxslərdə yalnız Allaha sevginin olub və qorxunun olmaması demək deyil. Lakin bu mərtəbədə qulu ibadətə ən çox sövq edən amil Allah sevgisidir. Necə ki, Peyğəmbərimiz (Allahın salavat və salamı onun üzərinə olsun) deyib: "Şükr edən bir qul olmayımmı?!".

Üçüncü mərtəbə: İhsandır. Bu mərtəbənin bir rükunu var: "Allaha sanki onun görürmüş kimi ibadət etmək və əgər Onu görmürsənsə, O səni görür".

Bunun dəlili Uca Allahın bu sözüdür: *❈Həqiqətən, Allah Ondan qorxub pis əməllərdən çəkinənlər və yaxşı işlər görənlərlədir! ❈ (Nəhl surəsi, 128)* Başqa ayədə: *❈217. Və yenilməz qüvvət sahibinə, mərhəmət sahibinə təvəkkül et! 218. O Allah ki, səni namaza duranda da görür. 219. Səcdə edənlər içində dolananda da. 220. Həqiqətən, (hər şeyi) eşidən, bilən Odur! ❈(Şüara surəsi, 217-220).*

Həmçinin: *❈(Ya Peyğəmbərim!) Sən nə iş görsən, Qurandan nə oxusan, (ümmətinlə birlikdə) nə iş görsəniz, onlara daldığınız (onları etdiyiniz) zaman Biz sizə şahid olarıq. ❈ (Yunus surəsi, 61).*

Hədislərdən buna dəlil: “Ömər (Allah ondan razı olsun) rəvayət edir ki, bir gün Peyğəmbərın (Allahın salavat və salamı onun üzərinə olsun) yanında oturmuşduq. Bu vaxt paltarı dümağ, saçları olduqca qara, üzərində heç bir səfər əlaməti görünməyən və aramızda heç kəsin tanımadığı bir nəfər içəri girib, Peyğəmbərin (Allahın salavat və salamı onun üzərinə olsun) qarşısında oturdu. İki dizini onun dizlərinə söykəyib, əllərini dizlərinin üzərinə qoyaraq dedi: «Ey Muhəmməd, mənə İslam haqqında xəbər ver!». Peyğəmbər (Allahın salavat və salamı onun üzərinə olsun): «İslam, Allahdan başqa ibadətə layiq haqq ilah olmadığına, Muhəmmədin Allahın Rəsulu olduğuna şəhadət etmək, namaz qılmaq, zəkat vermək, Ramazanda oruc tutmaq, Kəbəni (imkan olduqda) həcc etməkdir» deyə buyurdu. (Adam): «Doğru söylədin, dedi». (Ömər) dedi ki, adama heyrət etdik. Həm ona sual verir, həm də onun söylədiklərinin doğru olduğunu təsdiq edirdi. (Yenə) soruşdu: «Mənə İman haqqında xəbər ver!». (Peyğəmbər (Allahın salavat və salamı onun üzərinə olsun)): «(İman) Allaha, mələklərinə, kitablarına, peyğəmbərlərinə, axirət gününə və qədərin xeyir və şərrinin Allahdan olmasına inanmaqdır» deyə buyurdu. (Adam): «Doğru söylədin. Mənə ehsan haqqında xəbər ver!» dedi.  Peyğəmbər (Allahın salavat və salamı onun üzərinə olsun) :«(Ehsan) Allaha onu görür kimi ibadət etməkdir.  Sən Onu görməsən də, O səni görür». (Adam): «Mənə Qiyamət günü haqqında xəbər ver!» dedi. (Peyğəmbər (Allahın salavat və salamı onun üzərinə olsun)): «Bu haqda soruşulan soruşandan  cox bilmir». (Adam): «Onda mənə onun əlamətləri haqqinda xəbər ver» dedi. (Peyğəmbər (Allahın salavat və salamı onun üzərinə olsun)): «Qul qadının öz ağasını doğması, ayaq yalın, çılpaq, kasıb, çobanların hündür bina tikməkdə bir-birləri ilə yarışmalarıdır» deyə buyurdu. (Ömər) dedi ki, sonra o, adam çıxıb getdi. Bir müddətdən sonra Peyğəmbər (Allahın salavat və salamı onun

üzərinə olsun) mənə buyurdu: «Ey Ömər, o sual verənin kim olduğunu bilirsənmi?» Dedim: Allah və Rəsulu daha gözəl bilir. Peyğəmbər (Allahın salavat və salamı onun üzərinə olsun) buyurdu: «O, Cəbrail (Allahın salamı onun üzərinə olsun) idi. Sizə dininizi öyrətməyə gəlmişdi»”

Bu hədis islamın, imanın ehsanın və rükunlarına dəlildir.

Peyğəmbərin (Allahın salavat və salamı onun üzərinə olsun) “Bu haqda soruşulan soruşandan cox bilmir” sözləri Allahdan başqa heç kimin qiyamət gününün nə vaxt olacağını bilməməyinə dəlildir.

Peyğəmbərin (Allahın salavat və salamı onun üzərinə olsun) "Qul qadının öz ağasını doğması" sözlərinin mənası:

Günahkarların sayının artmasına işarədir

Yaxud köləliyin artmasına işarədir

Yaxud vəziyyətin dəyişməsinə işarə

Yaxud ağa qul qadın ilə evlənir və qul qadın da övlad dünyaya gətirir. Bu övlad da atasının vəfatından sonra anasının ağasına çevrilir.

“Ayaqyalın, çılpaq, kasıb” – burada kasıb yəni yoxsul insanlar deməkdir. “Çobanların hündür bina tikməkdə bir-birləri ilə yarışmaları” yəni vəziyyətlərin dəyişməsi deməkdir, belə ki, yoxsullar çevrilib azğınlaşmış zənginlər olacaqlar.

## Cəbrayıl (Allahın salamı onun üzərinə olsun) hədisindən çıxan faydalar

1. Elm öyrənənin üzərində altı haqq var, onlardan: özünə qarşı olan haqqı, müəllimlərinə qarşı olan haqqı, elm öyrəndiyi məkana olan haqqı, yoldaşlarına olan haqqı və öyrəndiyi elmə qarşı olan haqqı.

- Özünə qarşı olan haqqı: İxlasdır, çünki elm öyrənmək ibadətdir. Bu ibadətdə isə iki şey olmalıdır:

1. İxlas;
2. Peyğəmbərin (Allahın salavat və salamı onun üzərinə olsun) sünnəsinə uyğun olmaq;

- Müəlliminə qarşı olan haqqı: burada insanlar iki tərəfə və orta mövqeyə bölünürlər. Yer üzündə ilk şərik qoşmaq da saleh insanlar haqqında həddi aşmaqla olmuşdur. Saleh insanlar barəsində orta yolu tutmaq lazımdır, yəni onları nə şişirtmək, nə də kiçiltmək olmaz.
- Elm öyrəndiyi məkana olan haqqı.
- Yoldaşlarına olan haqqı: Uca Allah buyurur: ❈(Ey müsəlmanlar!) Siz insanlar üçün ortaya çıxarılmış ən yaxşı ümmətsiniz❈ (Ali İmran surəsi, 110) və Peyğəmbərimiz (Allahın salavat və salamı onun üzərinə olsun) demişdir: “Sizdən biriniz özü üçün istədiyi bir şeyi mömin qardaşı üçün də istəmədikcə, iman gətirmiş olmaz”.
- Kitablara qarşı olan haqqı: Kitabları qorumaqdır. Çünki Pak və Müqəddəs olan Allah bizə bu kitabları nemət kimi verib və ona görə də onları qorumalıyıq.
- Öyrəndiyi elmə qarşı olan haqqı: Təkrar etməyə özünü vadar etməklə və o elmə əməl etməklə elmi qoruyub saxmaqdır. Çünki öyrəndiyin elmə əməl etmək vacib olur. Bundan sonra isə bu elmə dəvət edirsən, çünki bu, bir nemətdir və bu nemət üçün də şükr etmək lazımdır.

2. Sual verməyin ədəbi odur ki, o sualda fayda və xeyir olsun.
3. Elm öyrənən çalışmalıdır ki, həmişə səliqəli formada olsun.
4. Məhəmməd Peyğəmbərin (Allahın salavat və salamı onun üzərinə olsun) vəfatından sonra “Allah və Rəsulu daha yaxşı bilir” deyil, sadəcə “Allah daha yaxşı bilir” deyilir.

ÜÇÜNCÜ ƏSAS: Peyğəmbərimiz Məhəmmədi (Allahın salavat və salamı onun üzərinə olsun) tanımaqdır.
Adı: Məhəmməd İbn Abdullah İbn Abdul Muttalib İbn Haşim. Haşimilər Qureyş qəbiləsindən idi və Qureyşilər də İbrahimin oğlu İsmayılın (Onlara və Peyğəmbərimizə (Allahın salavat və salamı olsun) nəslindən olan ərəblərdən idi.
Yaşı: Altmış üç il ömür sürüb, bunun 40 ili elçiliyinə qədər, 23 ili isə elçi və peyğəmbərliyindən sonra olub. "Oxu" vəhyi ilə nəbilik, "Müddəsir" vəhyi ilə isə peyğəmbərlik verilib.
Şəhəri: Məkkə şəhərində doğulub və Mədinəyə hicrət edib.

Bu fəsildə Peyğəmbərimizin (Allahın salavat və salamı onun üzərinə olsun) ***adını***, ***nəslini***, ***yaşını*** və ***dəvətindən bir hissəni*** əhatə edən qısa tərcümeyi halı verilib.

Peyğəmbərimiz (Allahın salavat və salamı onun üzərinə olsun) haqqında bilməyimiz vacib olan məsələlərdən:

Birinci: Adı və nəsli -

: Məhəmməd İbn Abdullah İbn Abdul Muttalib İbn Haşim. Haşimilər Qureyş qəbiləsindən idi və Qureyşilər də İbrahimin (Allahın salamı onun üzərinə olsun) oğlu İsmayılın (Allahın salamı onun üzərinə olsun) nəslindən olan ərəblərdən idi.

İkinci: Yaşı -

Altmış üç il ömür sürüb, bunun 40 ili peyğəmbərliyin qədər, 23 ili isə ondan sonra olub

***Peyğəmbərmizin (Allahın salavat və salamı onun üzərinə olsun)peyğəmbərlik dövrü iki hissəyə bölünür:***

Məkkə dövrü – on üç il davam edib

Mədinə dövrü – on il davam edib

O, (Allahın salavat və salamı onun üzərinə olsun) elçi yoxsa peyğəmbərdir?

O, (Allahın salavat və salamı onun üzərinə olsun) həm peyğəmbər, həm də elçidir. Ona (Allahın salavat və salamı onun üzərinə olsun) "Oxu" vəhyi ilə elçilik, "Müddəsir" vəhyi ilə isə peyğəmbərlik verilib.

Allah onu, insanları şərik qoşmaqdan çəkindirmək və Allahı təkləşdirməyə çağırmaq üçün göndərib. Buna dəlil Uca Allahın bu sözüdür: *❈1. Ey (libasına) bürünüb sarınan (Peyğəmbər)! 2. Qalx (qövmünü Allahın əzabı ilə) qorxut! 3. Öz Rəbbini uca tut. 4. Libasını təmizlə! (Nəfsini günahlardan pak et!). 5. (Əzaba səbəb olacaq) pis şeylərdən uzaqlaş! (Bütləri tərk et!). 6. (Etdiyin yaxşılığı) çox bilib başa qalxma! (Heç kəsə minnət qoyma!). 7. Rəbbinin yolunda (Rəbbinin rizasını qazanmaq üçün bu yolda sənə üz verəcək bütün çətinliklərə) səbr et!❈ (Muddəsir surəsi, 1-7).*

❈1. Ey (libasına) bürünüb sarınan (Peyğəmbər)!❈ ayəsinin mənası şərik qoşmaqdan çəkindirmək və tövhidə çağırmaq deməkdir.

❈3. Öz Rəbbini uca tut. ❈yəni təkləşdirməklə Onu əzəmətləndir.

❈4. Libasını təmizlə! (Nəfsinigünahlardan pak et!). ❈ Öz əməllərini şərik qoşmaqdan təmizlə.

❈5. (Əzaba səbəb olacaq) pis şeylərdən uzaqlaş! (Bütləri tərk et!). ❈ayəsində "pis şeylər" yəni bütlər, "uzaqlaş" yəni onları tərk et, onlardan və əhlindən uzaqlaş.

On ilini Allahı təkləşdirməyə çağırmaqla keçirib. On ildən sonra o səmaya qaldırıldı (meraca yüksəldi) və orada ona beş vaxt namaz qılmaq vacib edildi. Məkkədə üç il namaz qıldı və bundan sonra Mədinəyə hicrət etmək əmr olundu.

## Həyatından (Allahın salavat və salamı onun üzərinə olsun) bir parça

Ona (Allahın salavat və salamı onun üzərinə olsun) "Oxu" vəhyi ilə elçilik, "Müddəsir" vəhyi ilə isə peyğəmbərlik verilib.

Məkkədə yaşadığı dövrdə dəvətinin əsası Allahı təkləşdirmək, şirkdən çəkindirmək və yalnız Allaha ixlasla (səmimi qəlblə) ibadət etmək təşkil edirdi. Bu dövr on üç il davam etdi.

Sonra ona, (Allahın salavat və salamı onun üzərinə olsun) Mədinəyə hicrət etmək əmr olundu. Beləliklə, orada tövhidlə yanaşı artıq dinə aid olan digər ibadətlər, davranış qaydaları və digər həyati məsələlər də dəvətinə daxil oldu.

Onun (Allahın salavat və salamı onun üzərinə olsun) həyatına nəzər salan görər ki, Allah onun canını alana qədər Allahı təkləşdirməyə çağırış onun dəvətində daimi xarakter daşıyıb. Bu, insanları tövhidi öyrənməkdən yayındıran və tövhidi öyrənməyə bir neçə dəqiqənin kifayət etdiyini iddia edən insanlara aydın və tutarlı olan bir rəddir.

Müəllifin (Allahın rəhməti onun üzərinə olsun) "sonra o səmaya qaldırıldı" sözlərindən aşağıdakı faydaları çıxarılır:

1. Məhəmməd Peyğəmbərin (Allahın salavat və salamı onun üzərinə olsun) qeybdən bizə verdiyi hər bir məlumat haqında deyirik ki, "Biz buna inanır, təsdiq edir və razılaşırıq."
2. Allah fərz namazlarını səmada birbaşa əmr etdiyinə görə bunun çox əhəmiyyətli olmasını bildirir.

***Hicrət:*** Küfr olan ölkədən islam ölkəsinə köçməkdir. Bu ümmətə şirk ölkəsindən islam ölkəsinə hicrət etmək vacibdir və bu, qiyamət gününə qədər öz qüvvəsində qalır. Buna dəlil Uca Allahın bu sözüdür: *❊97. Mələklər öz nəfslərinə zülm edənlərin (Məkkədə kafirlər içərisində qalıb hicrət etməyənlərin) canlarını alarkən (onlara) deyəcəklər: "Siz (hicrət zamanı) nə işdə idiniz?" Onlar söyləyəcəklər: "Biz yer üzərində zəif (aciz) kəslər idik." (Mələklər də onlara: ) "Allahın torpağı geniş deyildimi ki, siz də hicrət edəydiniz?" – deyəcəklər. Onların sığınacaqları yer Cəhənnəmdir. O necə də pis yerdir! 98. Yalnız hicrət etməyə yol və çara tapmağa qadir olmayan aciz kişi, qadın və uşaqlar müstəsnadır. 99. Ola bilsin ki, Allah onları əfv etsin. Allah əfv edəndir, bağışlayandır!❊ (Nisə surəsi, 97-99)*, həmçinin: *❊Ey iman gətirən bəndələrim! (Əgər hər hansı bir yerdə islamiyyətə görə sizi incidib əziyyət verirlərsə, orada sizi ölüm təhlükəsi gözləyirsə, yaxud dini vəzifələrinizi lazımınca yerinə yetirə bilmirsinizsə, başqa şəhərlərə və ölkələrə hicrət edə bilərsiniz. Mən oralarda da sizə ruzi verərəm). Şübhəsiz ki, Mənim yerim genişdir. Buna görə də yalnız Mənə ibadət edin!❊(Ənkəbut surəsi, 56).* Bağəvi (Allahın rəhməti onun üzərinə olsun) demişdir: "Bu ayənin nazil olmasına səbəb Məkkədən hicrət etməyən müsəlmanlardır. Allah onların imanları ilə çağırır." Peyğəmbərimizin (Allahın salavat və salamı onun üzərinə olsun) hədislərindən dəlil isə "Tövbə etmə zamanı sona çatmadan hicrət qurtarmayacaq. Günəş qərbdən çıxmamış tövbə sona çatmayacaq.




Allahın hicrət etməyi əmr etdiyi hər bir şeyin hicrəti: hər hansı bir ***əməldən***– yəni Pak və Müqəddəs olan Allahın haram etdiyi hər bir şeyi tərk etmək. Bunun başında şərik qoşmaq gəlir;

Hər hansı bir ***şəxsdən*** – yəni kafir, münafiq və bu kimi başqalarını tərk etmək;

Vaxtdan – yəni kafirlərin bir yerə toplandığı vaxtları tərk etmək;

Məkandan- yəni kafirlərin toplandığı yerləri tərk etmək deməkdir.

- Bu iki şeydən biri ilə tövbələr artıq qəbul olunmur:

1. Günəş batdığı yerdən çıxanda;
2. Ölüm anı yetişdikdə - ❊Günah işlər görməkdə davam edərək ölüm yetişən anda: "Mən indi tövbə etdim" –deyənlərin və kafir olaraq ölənlərin tövbəsi qəbul olunmaz.❊ (Nisə surəsi, 18).

- Peyğəmbərimizin (Allahın salavat və salamı onun üzərinə olsun) "Fəthdən sonra hicrət yoxdur" sözünün mənası:yəni burada Məkkə şəhərindən Mədinə şəhərinə hicrət nəzərdə tutulur. Burada Peyğəmdərdən (Allahın salavat və salamı onun üzərinə olsun) bir bildiriş vardır ki, Məkkənin yenidən küfr ölkəsinə çevrilməsi mümkün deyil.

Məhəmməd Peyğəmbər (Allahın salavat və salamı onun üzərinə olsun) Mədinədə qərar tutandan sonra İslam dininin digər məsələləri ilə əmr olundu, məsələn: zəkat (1), oruc, həcc, cihad, əzan, yaxşı işləri əmr edib və pis əməllərdən çəkindirmək və İslam dininə aid olan baqşa məsələlər.Bu on il davam etdi və o, (Allahın salavat və salamı onun üzərinə olsun) bundan sonra vəfat etdi (2). Onun dini isə qaldı. Bu, onun yaydığı dindir.Camaat üçün bu dində bizə öyrətdiyindən daha xeyirli, çəkindirdiyindən isə daha şər bir şey yoxdur. **Xeyirli olan** – tövhid və Allahın sevdiyi və razı qaldığı bütün şeylərdir.

**Çəkindirdiyi şər**- isə şərik qoşmaq və Allahın sevmədiyi və rədd etdiyi şeylərdir.

1. İbn Useymin (Allahın rəhməti onun üzərinə olsun) deyir ki: “Zəkat ilk olaraq Məkkədə buyurulub, lakin onun payı və vacib qədəri orada müəyyən olunmamışdı. Mədinədə arıq zəkatın payı və vacib qədəri dəqiqləşdi.”
2. Məhəmməd Peyğəmbər (Allahın salavat və salamı onun üzərinə olsun) hicrət etdikdən on il sonra vəfat etdi və Aişənin (Allah ondan razı olsun) otağında dəfn olundu.
3. “Camaat üçün bu dində bizə öyrətdiyindən daha xeyirli, çəkindirdiyindən isə daha şər bir şey yoxdur. “ – o deməkdir ki, Məhəmməd Peyğəmbərin (Allahın salavat və salamı onun üzərinə olsun) əmanəti çatdırmasına, dəvəti bizə yetişdirməsinə, camaata nəsihətlər etməsinə, Allah yolunda haqq ilə mübarizə aparmasına və bizi gecəsi gündüz kimi aydın olan bir yolda tərk etməsinə və yalnız həlak içində olanın bu yoldan azmasına şahidlik etməyimiz vacibdir.




Allah insanlara kamil din göndərdi və Ona itaət etməyi hər iki növ məxluqata-cinlərə və insanlara vacib etdi. Bunun dəlili Uca Allahın

bu sözüdür: ❈(Ya Rəsulum!) De: "Ey insanlar! Mən Allahın sizin hamınıza göndərilmiş peyğəmbəriyəm.❈ (Əraf surəsi, 158)(1).
Allah onunla dinini tamamladı və buna da dəlil Uca Allahın bu sözüdür: ❈Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq İslamı bəyənib seçdim.❈ (Maidə surəsi, 3) (2).
Məhəmməd Peyğəmbərin (Allahın salavat və salamı onun üzərinə olsun) ölümünə dəlil isə Uca Allahın bu sözüdür: ❈ 30. (Ya Peyğəmbər!) Şübhəsiz ki, sən də öləcəksən, onlar da öləcəklər! 31. Sonra siz qiyamət günü Rəbbinizin hüzurunda mübahisə edəcəksiniz.❈ (Zumər surəsi, 30-31).

1.Məhəmməd Peyğəmbər (Allahın salavat və salamı onun üzərinə olsun) insanlara kamil dini çatdıraraq göndərildi və bununla da, ondan əvvəlki dinlər səlahiyyətini itirdi. İstər Məhəmməd Peyğəmbərin (Allahın salavat və salamı onun üzərinə olsun) dövründə, istərsə də indiki dövrdə yaşayan yəhudi və xaçpərəstlərə islam dini çatarsa və onlar bu dini qəbul etmirlərsə, küfr etmiş sayılırlar. Buna dəlillər:
1. Pak və Müqəddəs Allah buyurur: ❈(Ya Rəsulum!) Söylə: "Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan (fərqi olmayan) bir kəlməyə tərəf gəlin! ( O kəlmə budur: ) "Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq...❈ (Ali İmran surəsi, 64).
2. Pak və Müqəddəs Allah buyurur: ❈ Kitab əhlindən Allaha və qiyamət gününə iman gətirməyən, Allahın və Peyğəmbərinin haram buyurduqlarını haram bilməyən və haqq dini (islamı) qəbul etməyənlərlə zəlil vəziyyətə düşüb öz əlləri ilə cizyə verincəyə qədər vuruşun. ❈ (Tövbə surəsi, 29).
3. Məhəmməd Peyğəmbər(Allahın salavat və salamı onun üzərinə olsun) buyurmuşdur:"Nəfsim əlində olana and olsun ki, mənim haqqımda eşidən və mənə göndəriləna iman etmədən ölən hər bir yəhudi və ya nəsrani yalnız Cəhənnəm əhlindən olar."

2. Bu ayə İslama sonradan yenilik gətirənlərə rəddiyədir.

## BEŞİNCİ FƏSİL: SON

1. Şübhəsiz ki, hər bir insan ölümü dadacaq və o böyük gün üçün dirildiləcək. O böyük gün qiyamət günüdür. Sonra da etdiyi hər bir əməlin hesabına görə cavabını alacaq.

2. Kim yenidən dirilməyi və hesaba çəkilməyi yalan sayırsa, küfr etmiş olur, çünki o, imanın rükunlarından birini inkar etmiş olur.

3. Nuh (Allahın salamı onun üzərinə olsun)göndərilmiş ilk rəsuldur və bunun da dəlili Uca Allahın bu sözüdür:❈(Ya Rəsulum!) Biz Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy göndərdiyimiz kimi, sənə də vəhy göndərdik.❈İlk elçi kimi göndərilən isə Adəmdir (Allahın salamı onun üzərinə olsun). Bunun dəlili odur ki, Məhəmməd Peyğəmbərdən (Allahın salavat və salamı onun üzərinə olsun) Adəmin nəbi (elçi) olduğunu soruşulduqda, o, cavab verdi ki, o, Allahla danışan elçidir.

Peyğəmbər və elçilərin sonuncusu Məhəmməd Peyğəmbərdir (Allahın salavat və salamı onun üzərinə olsun) və buna dəlil də Uca Allahın bu sözüdür:❈ Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir.(Oğul odur ki, kişinin öz belindən əmələ gələ!) Lakin o, Allahın Rəsulu və nəbilərin sonuncusudur. ❈ (Əhzab surəsi, 40). Kim Məhəmməd Peyğəmbərdən (Allahın salavat və salamı onun üzərinə olsun) sonra elçi və ya peyğəmbər olduğunu iddia edərsə, o, yalançıdır və küfr etmiş olur və bu iddianı təsdiqləyən hər bir kəs də onu iddia edən kimi küfr etmiş olur.

İnsanlar öldükdən sonra dirildiləcəklər. Buna dəlil Uca Allahın bu sözüdür: *❈Sizi (ulu babanız Adəmi) də onda (o torpaqdan) yaratdıq. Sizi (öləndən sonra) ora qaytaracaq və (qiyamət günü) bir daha oradan (dirildib) çıxardacağıq. ❈(Taha surəsi, 55).*Həmçinin: *❈17. Və Allah sizi (atanız Adəmi) yerdən (torpaqdan) bir bitki kimi göyərtdi. 18. Sonra sizi yenə ora qaytaracaq və (qiyamət günü dirildib oradan da) çıxardacaqdır. ❈ (Nuh surəsi, 17-18).* Dirildikdən sonra isə əməllərinizə görə hesaba çəkiləcək və mükafatlandırılacaqsınız. Buna dəlil Uca Allahın bu sözüdür: *❈Göylərdə və yerdə nə varsa, (hamısı) Allahındır. O, pislik edənlərə əməllərinin cəzasını verəcək, yaxşılıq edənləri isə ən gözəl mükafatla mükafatlandıracaqdır! ❈(Nəcm surəsi, 31)* (1). Kim yenidən dirilməyi yalan sayırsa, küfr etmişdir. Buna dəlil isə Uca Allahın bu sözüdür: *❈Kafir olanlar (öldükdən sonra) əsla dirilməyəcəklərini iddia edirlər. (Ya Peyğəmbər!) De: "Bəli, Rəbbimə and olsun ki, siz mütləq dirildiləcəksiniz. Sonra da (dünyada) etdiyiniz əməllər sizə (bir-bir) xəbər veriləcəkdir. Bu, Allah üçün çox asandır! ❈(Təğabun surəsi, 7)* (2).

Allah bütün peyğəmbərləri müjdələyici və çəkindirici kimi göndərib. Buna dəlil Uca Allahın bu sözüdür: *❈Biz peyğəmbərləri (möminlərə) müjdə gətirən və (kafirləri) əzabla qorxudan kimi göndərdik... ❈ (Nisə surəsi, 165).* İlk peyğəmbər Nuh (Allahın salamı onun üzərinə olsun), sonuncusu isə Məhəmməddir (Allahın salavat və salamı onun üzrəniə olsun). O, (Allahın salavat və salamı onun üzərinə olsun) elçilərin də sonuncusudur.

Nuhun (Allahın salamı onun üzərinə olsun) ilk peyğəmbər olmasına dəlil Uca Allahın bu sözüdür: *❈(Ya Rəsulum!) Biz Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy göndərdiyimiz kimi, sənə də vəhy göndərdik.. ❈ (Nisə surəsi, 163)* (3).

Allah bütün qullarına tağutu inkar edib, Allaha iman etməyi vacib etmişdir. İbn  Qeyyim (Allahın rəhməti onun üzərinə olsun) deyib: ***"Tağut- qulun ibadət olunan, tabe olunan və itaət olunanda həddi aşmasıdır."***

Nuh pPeyğəmbərdən (Allahın salavat və salamı onun üzərinə olsun)  Muhamməd Peyğəmbərə (Allahın salavat və salamı onun üzərinə olsun) qədər  Allah bütün ümmətlərə peyğəmbər göndərib. Peyğəmbərlərə yalnız Allaha ibadət etməyi, tağutu isə inkar etməyi əmr edib. Buna dəlil isə Uca Allahın bu sözüdür: *❈Biz hər ümmətə: "Allaha ibadət edin, Tağutdan çəkinin! – deyə peyğəmbər göndərmişdik. ❈ (Nəhl surəsi, 36).*

Tağutlar çoxdur və ən başda gələnlərin sayı beşdir: ***İblis – Allah ona lənət edib, razı qaldığı halda ibadət olunan şəxs, özünə ibadət etməyə çağıran şəxs, qeyb elmindən nəisə iddia edən şəxs və Allahın nazil etdiyi ilə hökm verməyən şəxsdir***. Buna dəlil Uca Allahın bu sözüdür: *❈Dində məcburiyyət (zorakılıq) yoxdur. Artıq doğruluq (iman) azğınlıqdan (küfrdən) ayırd edildi. Hər kəs Taqutu (Şeytanı və ya bütləri) inkar edib Allaha iman gətirsə, o, artıq (qırılmaq bilməyən) ən möhkəm bir ipdən (dəstəkdən) yapışmış olur.❈ (Bəqərə surəsi, 256).*

Bu "Allahdan başqa ibadətə layiq ilah yoxdur" kəliməsinin mənasıdır . Hədisdə deyilir ki: "Hər bir işin əsası İslamdır, dirəyi namazdır, zirvəsi isə Allah yolunda cihaddır."

- Allah peyğəmbər və elçiləri müjdələyici və çəkindirən kimi göndərdi. Onların hamısı tövhidə dəvət edib, tağut və şirkin bütün növləri ilə mübarizə aparıblar. Buna dəlil Uca Allahın bu sözüdür: ❈ Biz hər ümmətə❈ - yəni hər bir tayfaya, ❈Allaha ibadət edin❈ - yəni onu təkləşdirin, ❈Tağutdan çəkinin!❈  yəni tağutdan uzaq olun. Yəni, tağut bir kənarda və sən isə o biri kənarda olmalısan. Bu cür çəkindirmə (ərəb dilçiliyində) ən kamil çəkindirmə formasıdır. Bu isə şirk və şirk qoşan camaatdan uzaq olmağı həyata keçirməklə olur.

Allah bütün qullarına tağutu inkar edib, Allaha iman etməyi vacib edib. Tağutu inkar etmək Allaha iman etməkdən əvvəl olmalıdır: ❈Hər kəs Taqutu (Şeytanı və ya bütləri) inkar edib Allaha iman gətirsə ❈.

***Tağutlar: qulun ibadət olunan (məsələn, daşlar və ağaclar), tabe olunan (məsələn, pis alimlər) və itaət olunanda (məsələn, Allahın əmrlərinə itaət etməyən hökmdarlar) həddi aşmasıdır.***

Tağutlar çoxdur və ən başda gələnlərin sayı beşdir: İblis – Allah ona lənət edib, razı qaldığı halda ibadət olunan şəxs, özünə ibadət etməyə çağıran şəxs, qeyb elmindən nəisə iddia edən şəxs və Allahın nazil etdiyi ilə hökm verməyən şəxsdir.

Allahın nazil etdiyi ilə hökm verməyən şəxslə bağlı açıqlama:

Dindən çıxaran küfr-

Etiqad edərsə ki, başərin verdiyi hökm Allahın verdiyi hökmlə eyni və ya ondan daha yaxşıdır.

Dindən çıxarmayan küfr-

Etiqad edərsə ki, Allahın hökmündən başqa verilən hökm batildir, ancaq nəfsinə, hökmranlığı sevdiyinə və ya digər səbəblərə görə yenə də onunla hökm verir.

Cihad dörd mərtəbəyə bölünür:

1. Nəfs ilə cihad - elm, əməl, Allah yolunda dəvət və səbrlə olur

2.Şeytanla cihad - Şübhə və günahları tərk etməklə olur

3.Kafirlərlə cihad - Qəlb, dil, əzalar və mal ilə olur

4.Münafiqlərlə cihad -Qəlb, dil, əzalar və mal ilə olur

## ***SON:***

*Hər bir ağıl sahibi bu əhəmiyyətli mətn ətrafında düşünməli və ona olduqca xüsusi diqqət yetirməlidir, çünki bu mətn hər bir insanın qəbrdə cavab verməli olacağı mühüm üç sualı əhatə edir.*

Daha doğrusunu Allah bilir. Məhəmmədə, onun ailəsinə və əshabına salat və salam olsun.

| | | | |
|---|---|---|---|
| Allahı, Peyğəmbərini (Allahın salavat və salamı onun üzərinə olsun) və İslam dinini dəlilləri ilə tanımaq<br><br>(yəni üç əsas) | ***Elm*** | ○ DÖRD MƏSƏLƏ VƏ DƏLİLLƏRİ (ASR SURƏSİ) | **ÜÇ ƏSAS (QƏBRDƏ SORUŞULAN ÜÇ SUALIN İXTİSARI), DƏLİLLƏRİ, TÖVHİDİ NƏ ÜÇÜN ÖYRƏNİRİK? ÜÇ ƏSASI NƏ ÜÇÜN ÖYRƏNİRİK? ÖYRƏNMƏYİMİZİN FAYDASI NƏDİR?** |
| “Elm əməli çağırır və əgər əməl cavab vermirsə, elm onu tərk edib gedir.”<br><br>Elminə əməl etməyən alim,<br><br>Bütpərəstdən əvvəl əzab olunacaq. | Ona ***əməl*** etmək | | |
| Dəvətin şərtləri: ixlas, İslam elmi, hikmət, dəvət olunan şəxsin halı nəzərə almaq, səbr. | Ona ***dəvət*** etmək | | |
| İlk dəvət olunan şey tövhiddir. Bütün peyğəmbərlər və elçilər buna çağırıblar. Dəvətin ən uca mərtəbəsi tövhidə çağırış və şirkdən çəkindirməkdir. | | | |
| 1.Allaha itaət etməkdə səbr etmək, məsələn: namaz qılmaq. 2.Allaha asi olmaqdan çəkinməkdə səbr etmək, məsələn:Sələm yeməmək. 3.Allahın acı qədərinə səbr etmək, məsələn: Yoxsulluğa səbr etmək. | Bu yoldakı əzab-əziyyətə ***səbr*** | | |
| Yəni elmə, sonra əmələ daha sonra da dəvətə səbr etmək. | | | |
| ***Rububiyyət tövhidi*** (Rububiyyət tövhidində Allahı təkləşdirən uluhiyyət tövhidində də Allahı təkləşdirməlidir) və ***Ad və Sifətlər tövhidi*** | | ○ ÜÇ MƏSƏLƏ | |
| Uluhiyyət tövhidi (ixlas): Allah Ona ibadətdə Onunla birgə heç kəsin ortaq (şərik) qoşulmasını razı qalmaz. İstər yaxın mələk olsun, istərsə də göndərilmiş bir elçi | | | |
| Şərik qoşmaqdan və şərik qoşanlardan uzaq olmaq: qəlb ilə (kafirlərə nifrət bəsləmək), dil ilə (❃ “Mən sizin ibadət etdiklərinizdən (bütlərdən) tamamilə uzağam; ❃ (Zuxruf surəsi, 26) və bədən üzvləri ilə (kafirlərin bayramlarında, mərasimlərində iştirak etməmək və onlara bənzəməmək). | | | |

| | | |
|---|---|---|
| **Hənif**: Şərik qoşmaqdan uzaqlaşıb ixlasa, Allahı təkləşdirməyə və imana meyl edən din deməkdir. | ○ TÖVHİDİ ÖYRƏNMƏYİMİZİN SƏBƏBİ | ÜÇ ƏSAS (QƏBRDƏ SORUŞULAN ÜÇ SUALIN İXTİSARI), DƏLİLLƏRİ, TÖVHİDİ NƏ ÜÇÜN ÖYRƏNİRİK? ÜÇ ƏSASI NƏ ÜÇÜN ÖYRƏNİRİK? ÖYRƏNMƏYİMİZİN FAYDASI NƏDİR? |
| **Tövhidin lüğəvi mənası:** "Təkləşdirmək" felinin məsdəridir. Nəyisə tövhid etmək, yəni onu təkləşdirmək (yeganə etmək) deməkdir.<br>**Şərii mənası:** Pak və müqəddəs olan Allahı, Ona aid olan rububiyyətdə, uluhiyyətdə, ad və sifətlərdə təkləşdirməkdir.<br>Tövhidin üç növü var: | | |
| **Rububiyyət tövhidi:**Uca Allahın işlərində (etdiklərində) Onu təkləşdirmək deməkdir. Yəni, Yaratmasında, Sahib olmasında və İdarəçiliyində tək olması deməkdir.<br>**Uluhiyyət tövhidi**: Uca Allaha ibadət etməkdə Onu təkləşdirmək və ya qulun öz əməllərində Allahı təkləşdirməsi deməkdir.<br>**Ad və Sifətlər tövhidi:** Uca Allahın Kitabında və Peyğəmbərinin (Allahın salavat və salamı onun üzərinə olsun) dilində Özünü adlandırdığı adlarda və vəsf etdiyi vəsflərdə Onu təkləşdirmək deməkdir.<br>Allahın Özü barəsində təsdiq etdiyi Ad və Sifətləri olguğu kimi təsdiq etməklə və Allahın Özü barəsində inkar etdiyi xüsusiyyətləri olduğu kimi inkar etməklə olur. Bunları heç bir təhrif (yozum) vermədən, inkar etmədən, keyfiyyət vermədən və bənzətmədən etmək lazımdır. | | |
| **Şirk –** Allaha ibadətdə Onunla birgə başqasına da ibadət etməyə deyilir və bu yer üzündə ən böyük günahdır. | | |
| Pak və Müqəddəs olan Allahı tanımaq: Rəbbin kimdir? Rəbbini necə tanıdın? Rəbbim ibadətə layiq məbuddur. İbadətin növləri, bu ibadətlərin Allahdan qeyrisinə edilməsinin dəlilləri ilə hökmləri; | ○ ÜÇ ƏSAS | |
| İslam dinini dəlilləri ilə tanımaq, İslamın tərifi, dinin mərtəbələri, İslamın rükunları, şəhadətin tərifi, imanın rünları, imanın şöbələri, ehsan, dinin mərtəbələrinin dəlilləri, qiyamət gününün əlamətləri; | | |
| Peyğəmbərimizi (Allahın salavat və salamı onun üzərinə olsun) tanımaq, onun nəsli, valideynlərinin adı, yaşı, elçilik və peyğəmbərliyi, şəhəri, göndərilməsinin hikməti, tövhidə dəvətinin vaxtı, isra və merac, namaz harada və nə vaxt vacib edildi? Hicrət, onun hökmü və vaxtı, dinin digər məsələləri nə vaxt əmr olundu? Dəvətin müddəti, vəfatı, o, necə din gətirdi, hər iki məxluqat üçün göndərilməsi, dinin kamil olması və nemətin tamamlanması; | | |

<table>
<tr><td colspan="4">Ölümdən sonra dirilmək və əməllərə görə hesaba çəkilmək, dirilməyi yalanlayan kəs küfr etmiş olur, peyğəmbərlərin vəzifəsi və onların dəvəti, ilk və sonuncu peyğəmbər, tövhidin iki sütunu: tağutu inkar etmək və Allaha iman gətirmək; tağutun tərifi, tağutların ən başda gələnləri, tağutu inkar etmənin yolu, “Allahdan başqa ibadətə layiq məbud yoxdur” şəhadətinin mənası, hər işin başı islamdır, dinin dirəyi namazdır, dinin zirvəsi cihaddır.</td><td rowspan="9">○ SON</td><td rowspan="9">ÜÇ ƏSAS (QƏBRDƏ SORUŞULAN ÜÇ SUALIN İXTİSARI), DƏLİLLƏRİ, TÖVHİDİ NƏ ÜÇÜN ÖYRƏNİRİK? ÜÇ ƏSASI NƏ ÜÇÜN ÖYRƏNİRİK? ÖYRƏNMƏYİMİZİN FAYDASI NƏDİR?</td></tr>
<tr><td colspan="2">Əsr surəsində buyurulduğu kimi olur (yəni elm, əməl, dəvət və səbr)</td><td>Nəfslə cihad</td><td rowspan="6">Cihadın növləri</td></tr>
<tr><td>Böyük günahlar (xüsusi cəza təyin olunmuş günahlar)</td><td rowspan="2">Şəhvətlər</td><td rowspan="4">Şeytanla cihad</td></tr>
<tr><td>Kiçik günahlar (xüsusi cəza təyin olunmamış günahlar)</td></tr>
<tr><td>Böyük şirk (dindən çıxarır) və kiçik şirk(dindən çıxarmır)</td><td rowspan="2">Şübhələr</td></tr>
<tr><td>Bidət (dinə sonradan yenilik gətirmək)</td></tr>
<tr><td colspan="2">Qəlb, dil, əzalar və mal ilə olur</td><td>Kafir və münafiqlərlə cihad</td></tr>
<tr><td colspan="3">Qulun ibadət olunan (məsələn, daşlar və ağaclar), tabe olunan (məsələn, zalım alimlər) və itaət olunanda (məsələn, Allahın əmrlərinə itaət etməyən hökmdarlar) həddi aşmasıdır. Tağutlar çoxdur və ən başda gələnlərin sayı beşdir: İblis – Allah ona lənət edib, razı qaldığı halda ibadət olunan şəxs, özünə ibadət etməyə çağıran şəxs, qeyb elmindən nəisə iddia edən şəxs, Allahın nazil etdiyi ilə hökm verməyən şəxsdir.</td><td>Tağut</td></tr>
<tr><td colspan="4">Daha doğrusunu Allah bilir. Məhəmmədə, onun ailəsinə və əshabına salat və salam olsun.</td></tr>
</table>

**MÜNDƏRİCAT**


| | | |
|---|---|---|
| 1 | Müqəddimə | Səhifələr 2 - 5 |
| 2 | Dörd məsələ | 6 - 9 |
| 3 | Üç məsələ | 10 - 13 |
| 4 | Tövhidi öyrənməyin əhəmiyyəti | 14 |
| 5 | Üç əsas | 15 - 40 |
| 6 | Son | 42- 44 |
| 7 | Əlavə (Mətnin şərhinin cədvəllərlə təsviri) | 45 - 47 |
| 8 | Mündəricat | 48 |

# DÖRD QAYDA

Fəzilətli şeyx

Heysəm bin Muhamməd bin Cəmil Sərhan

Məscidu Nəbəvinin tədris idarəsinin keçmiş müəllimi,

www.attasseel-alelmi.com

saytının rəhbəri

Allah onu, valideynlərini və bu kitabın çıxarılmasında yardım edənləri bağışlasın.

**Dörd Qayda**

Heysəm bin Muhammməd bin Cəmil Sərhan

“I” nəşr

Bütün hüquqlar qorunur©

Kitabı çap edib pulsuz paylamaq istəyənlər müəllifdən izn almalıdırlar.

Əlaqə üçün poçt ünvanı

islamtorrent@gmail.com

## Rəhimli və Mərhəmətli Allahın adı ilə

**Həmd aləmlərin rəbbi Allaha məxsusdur. Biz yalnız Ona həmd edir, Ondan kömək diləyir və Ondan bağışlanma diləyirik. Nəfsimizin şərrindən və əməllərimizin pisindən Ona sığınırıq. Əgər Allah kimə hidayət versə onu kimsə azdıra bilməz, kimi də azdırsa ona kimsə hidayət verə bilməz. Şəhadət verirəm ki, Allahdan başqa haqq ilah yoxdur, O təkdir, şəriki yoxdur. Yenə şəhadət verirəm ki, Muhammməd Allahın qulu və elçisidir.**

## Şərhdən öncəki müqəddimə

Bu dörd qayda kitabı elm tələbəsinin öyrənəcəyi mətnlər sırasında ikinci yerdədir. Bu kitabın tədris edilməsində məqsəd:

- Bu alimlərin nəsihətidir.
- Sələf alimlərimizin etdiklərini təkrarlayırıq
- Bu kitabda zamanımızda şirk qoşanlara rəddlər var
- "Şübhələrin kəşfi" kitabından əvvəl bu kitaba başlamaq lazımdır ki, elm tələbəsinin qəlbində şübhəyə yer qalmasın.
- Bu kitab "şübhələrin kəşfi" kitabının müxtəsəridir.

**Dörd qaydanın mündəricatı**

**Alimlər bu kitabı üç qismə bölürlər:**

- Müqəddimə (Səadətin ünvanı)
- Tövhidi öyrənməyin əhəmiyyəti
- Qaydalar

## **Birinci: Müqəddimə** (səadətin ünvanı)

**(1) Nə üçün alimlər kitablarını Allahın adı ilə başlayırlar?**

- Allahın adı ilə təbərrük edirlər
- Özlərindən əvvəlki alimlərin ənənəsini davam etdirirlər
- Allahın kitabına və peyğəmbərlərin yoluna müvafiq olmaq üçün

**Mərhəmətli və Rəhimli Allahın adı ilə(1) . Kərim Allahdan, əzəmətli Ərşin Rəbbindən istəyirəm ki(2), səni dünya və axirətdə Özünə dost tutsun(3), harda olursan ol, səni bərəkətli etsin və səni nemət veriləndə şükür edən, müsibət gələndə səbir edən, günah işlədəndə bağışlanma diləyənlərdən etsin. Çünki bu üç xislət səadətin ünvanıdır.**

(2) Şeyx Allahın adı ilə başladıqdan sonra müqəddimədə adəti üzrə elm tələbəsi üçün dua etdi. Bu da onun elm tələbələrinə nə qədər xeyir istədiyinə və onların hər xeyirə nail olmaları üçün çalışmağına dəlildir.

(3) Allah dostları imanla təqvanı cəm edənlərə deyilir.
Şeyxul İslam İbn Teymiyyə (Allah ona rəhmət etsin) demişdir: "Kim mömin və təqvalı olarsa, o Allah dostudur". Təsdiqi isə Allahın bu kəlamdır: **((Bilin ki, Allah dostlarına nə bir qorxu, nədə bir hüzn vardır. Onlar iman gətirib təqvalı olanlardır))** *(Yunus surəsi 62-63).*

**Bərəkət:** bir şeyin artıb çoxalması deməkdir.
**Təbərrük:** bir şeyin artmasını istəmək deməkdir.
**Mübarək:** bərəkətli olan deməkdir, yəni harda olursa-olsun ondan faydalanmaq olur.

**Təbərrük iki yerə bölünür:**

Qadağan olan təbərrük. Qadağan olunmuş təbərrük kiçik şirkin növlərindəndir

**İcazəli olan təbərrük**

Məsələn, peyğəmbər məscidində və ya məscidul-haramda namaz qılmaqla təbərrük etmək

Şəriət elmini öyrənmək və dua etməklə təbərrük etmək olar. Bir insanın elmi və xeyirə dəvət etməsi ilə də təbərrük etmək olar. Bu, özlüyündə bir bərəkətdir. Çünki, biz ondan böyük xeyirlər əldə etmiş oluruq. Misal olaraq şeyxulislam İbn Teymiyyənin və başqa alimlərin kitablarını göstərmək olar. Belə ki Allah onların kitablarına xeyir-bərəkət verib və ümmət bu kitablardan faydalanıb.

***‹Nemət veriləndə şükür edən›*(1):**

(1) Nemət özü bir sınaqdır. Uca Allah buyurur: **"Biz sizi sınamaq üçün şər və xeyirlə imtahana çəkirik."**
**"(Süleyman) taxtı yanında hazır durmuş görən kimi dedi: “Bu, Rəbbimin lütfündəndir ki, məni sınağa çəksin, görək şükür edəcəyəm, yoxsa nankor olacağam! Kim şükür etsə, ancaq öz xeyrinə şükür etmiş olar, kim də nankor olsa, (bilsin ki), həqiqətən, Rəbbim (onun şükrünə) möhtac deyildir, Səxavətlidir!"**
**"İnsana gəldikdə, nə zaman Rəbbin onu imtahana çəkib ehtiram etsə, ona bir nemət versə, o: “Rəbbim mənə ehtiram göstərdi!” –deyər."**
Həmçinin, Allah Təalanın İsrail oğullarından olan üç nəfəri sınağa çəkməsi hadisi də buna dəlildir.

**Nemət həm rububiyyət tövhidi ilə, həm uluhiyyət tövhidi ilə bağlıdır. Nemətin şükrü iki qismə bölünür:**

Nemət gələndən sonra neməti verən və lütf edən Allaha şükür etməkdir. Bu şükr aşağıdakılarla edilir:

- Əzalarla: Bu, verilən neməti Allahın razı qaldığı şeylərə sərf etməklə olur. Üstəlik də Ona yaxınlaşmaq üçün itaətləri artırmaq və günahlardan uzaqlaşmaq lazımdır
- Dillə: Allahın verdiyi nemətləri danışmaqla və buna görə Allaha həmd və sənalar etməklə olur. **"Və Rəbbinin nemətindən danış."**
- Qəlblə: Var olan bütün nemətlərin Allahdan olduğuna etiqad etməklə olur.

Nemət gəlməzdən öncə Allaha olan bağlılıq

Bu qismin tələbinə görə bəndə etiqad və iman etməlidir ki, nemət verən Allahdır. Gərək o, Allahdan başqasına qəlbini bağlanmasın, nədə Ondan başqasından xeyir ummasın. Cənnət Allahdan istənilir, çünki onun maliki Allahdır.

Həmçinin ruzini də Allahdan qeyrisindən istəmək mümkün deyil. **"Ölməz, (əbədi) Yaşayana təvəkkül et və Onu həmd-sənа ilə təriflə."**

**"Siz Allahı qoyub ancaq bütlərə ibadət edir və yalan uydurursunuz. Şübhəsiz ki, Allahdan başqa ibadət etdikləriniz sizə ruzi verməyə qadir deyillər. Elə isə ruzini Allahdan diləyin** – yəni, Ondan diləyin, başqasından yox – **Ona ibadət edin və Ona şükür edin."**

## *‹Müsibət gələndə səbr edən›*(1):

**İnsanlar müsibətlər gəldiyində dörd qismə bölünürlər:**

- Qəzəblənən
- Səbr edən
- Razı qalan
- Şükr edən

**Birinci: Qəzəblənmək.** Haramdır, böyük günahlardan sayılır və aşağıdakılarla olur:

- Əzalarla
- Qəlblə
- Dillə

-Qəlb ilə qəzəblənmək. İbn Qeyyim deyir:"Bəzi insanlar bunu qəlbi ilə edir, lakin dili ilə bunu deməyə cürət etmirlər. Qəlbində deyir: "Rəbbim mənə zülüm etdi, mən buna layiq deyildim, belə-belə olmalı idi..." Nəyi isə az və ya çox görür. Qəlbini yoxla, sən salamatsanmı?"

-Dil ilə qəzəblənmək. Vay-şivən salır, söyüb qarğış edir və s.

-Əzalar ilə. Yanaqlarını, yaxasını cırır, saçlarını yolur, əşyaları sındırır – bunlar hamısı əzalarla qəzəblənməyə aiddir.

**İkinci: səbr etmək.** Səbr etmək ümmətin icması ilə vacibdir. İnsan həm qəlbi, həm dili, həm də bədən üzvləri ilə səbr etməlidir. İmam Əhməd (Allah ona rəhmət etsin) demişdir: "Quranda doxsan yerdə Səbr etmək qeyd olunub. İslam ümmətinin icmasına görə səbr etmək vacibdir və o imanın yarısını təşkil edir. Çünki, iman iki hissədən ibarətdir: yarısı səbr, yarısı da şükrdür." (Mədəricus səlikin).

**Üçüncü: razı qalmaq.** Bu xüsusiyyət, səbirdən daha üstündür və müstəhəbdir.

**Dördüncü: şükür etmək.** Bu da müstəhəbdir və yuxarıda deyilən qismlərin hamısından daha üstün bir mərtəbədir.

(1) Çünki, ümmətin icması ilə hər kəsin səbr etməsi vacibdir.

# İkinci: Dörd qayda

**Rəhmli və mərhəmətli olan Allahın adı ilə**

Allah səni Öz itaətinə yönəltsin - bil ki, hənif din İbrahimin dinidir, o da: Tək Allaha ixlasla və dini yalnız Ona aid edərək ibadət etməyindir. Allah Təalə bütün insanları bunun üçün yaratmış və onlara da yalnız belə etmələrini əmr etmişdir. Allah Təalə buyurur : (**Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım**)**(1)** *[Zəriat surəsi 56.]*

Bİlirsən ki, Allah səni Ona ibadət etmək üçün yaradıb. Namaz yalnız dəstəmazlı halda qılındıqda namaz adlanırsa, hər bir ibadət də tövhid etiqadı ilə olduqda ibadət adlanır. Subaşına getmək dəstamazı pozduğu kimi, şirk də ibadətə qarışdıqda onu puç edir.

Əgər bilsən ki, şirk ibadətə qarışanda onu batil edir, əməli heçə çıxarır və əməl sahibini də əbədi cəhənnəmlik edir, o zaman anlayarsan ki, sənin üçün ən vacib məsələ şirkin nə olduğunu öyrənməkdir. Ümid edirəm ki, bunun sayəsində Allah səni bu şirk şəbəkəsindən azad edər. Allah Təalə buyurur: (**Şübhəsiz ki, Allah Ona şərik qoşanı bağışlamaz, bundan aşağısını istədiyinə bağışlayar**) *[Nisə surəsi 48].* Şirkin nə olduğununu bilmək üçün Allahın Öz kitabında xəbər verdiyi dörd qaydanı bilməlisən.

**BİRİNCİ QAYDA**

Bil ki, Peyğəmbərin (Allahın salamı və salavatı onun üzərinə olsun) döyüşdüyü kafirlər etiraf edirdilər ki, yaradan da, hər şeyi idarə edən də Allahdır. Amma bu etiraf onların İslama girməsinə kifayət etmədi.

Sübutu isə Allahın bu ayəsidir: (**De: "Sizə göydən və yerdən ruzi verən kimdir? Qulaqlara və gözlərə hakim olan kimdir? Ölüdən diri çıxaran, diridən də ölü çıxaran kimdir? İşləri yoluna qoyan kimdir?" Onlar deyəcəklər: "Allah!" De: "Bəs belə olduğu halda Allahdan qorxmursunuz?"**) *[Yunus surəsi 31].***(2)**

(1) Müəllif (Allah ona rəhmət etsin) burda tövhidi nə üçün öyrəndiyimizi açıqlayır.

(2)Peyğəmbərin (Allahın salamı və salavatı onun üzərinə olsun ) onları dəvət etmək üçün göndərildiyi kafirlər rububiyyət tövhidini etiraf edirdilər. Bununla belə Peyğəmbər (Allahın salamı və salavatı onun üzərinə olsun ) onlarla vuruşub onlara qarşı cihad etdi. Deməli onlarla Peyğəmbərin (Allahın salamı və salavatı onun üzərinə olsun ) arasında olan ixtilafın səbəbi uluhiyyət tövhidi idi. Kim Allaha xas olan hər hansı bir ibadəti Allahdan başqasına aid edərsə, böyük şirkə və böyük küfrə düşmüşdür.

**İKİNCİ QAYDA**

Onlar deyirlər: Biz o ibadət etdiklərimizə yalnız Allaha yaxınlaşmaq və onlardan şəfaət ummaq üçün dua edib onlara yönəldik.

Onların iddiasını aşağıdakı ayə təkzib edir: (**Allahı qoyub başqalarını özlərinə dost tutanlar: "Biz, onlara ancaq bizi Allaha daha çox yaxınlaşdırsınlar deyə ibadət edirik"– deyirlər. Əlbəttə ki, Allah ziddiyyətə düşdükləri şeylər barəsində onların arasında Öz hökmünü verəcəkdir. Şübhəsiz ki, Allah yalançı və kafirləri doğru yola yönəltməz.**) [Zumər surəsi 3].**(1)**

Şəfaət üçün gətirdikləri iddia da bu ayə ilə rədd olunur: **(Onlar Allahı qoyub özlərinə nə bir zərər, nə də bir fayda verə bilənlərə ibadət edir və: "Onlar Allah yanında bizim şəfaətçilərimizdir!"– deyirlər.**) [Yunus surəsi 18].

Şəfaət iki yerə bölünür: qadağan olunan və icazə verilən şəfaət.**(2)**

Qadağan olunan şəfaət, yalnız Allahın qadir olduğu şeyləri Allahdan başqasından istəməkdir. Dəlil də Allahın bu ayəsidir: **(Ey iman gətirənlər! Alış-verişin, dostluğun və şəfaətin olmayacağı gün gəlməmişdən öncə sizə verdiyimiz ruzidən Allah yolunda xərcləyin! Kafirlər əsl zalımlardır**) [Bəqərə surəsi 254].

İcazə verilən şəfaət isə, Allahdan istənilən şəfaətdir. Şəfaət edən, şəfaəti etməklə Allah qatında şərəflən-dirilmişdir. Şəfaət olunan kimsə, Allah şəfaətə izn verdikdən sonra sözündən və əməlindən razı qaldığı kimsədir. Allah Təalə buyurur: (**Onun izni olmadan Onun yanında kim şəfaət edə bilər?**) [Baqara surəsi: 255].

(1) Şirk və küfr əhli iddia edirdilər ki, onlar batil ilahlarına yalnız şəfaət və yaxınlaşmaq üçün dua edib onlara yönəlirlər. Peyğəmbər (Allahın salamı və salavatı onun üzərinə olsun ) bununla belə onları təkfir edib onlarla savaşdı.

(2)Şəfaətin lüğəti mənası: birini başqasına əlavə edərək onu iki etməkdir. Şərii mənası: başqasına fayda vermək, yaxud ondan zərəri dəf etmək üçün ona vasitəçilik etməkdir.

## Şəfaətin qismləri

- **İcazəli şəfaət**
  Bu şəfaət yalnız Allahdan istənilir. Bunun da üç şərti var:
  **1.** Allahın şəfaət üçün izn verməsi;
  **2.** Allahın şəfaət edəndən razı olması;
  **3.** Allahın şəfaət olunandan razı qalması.
  **İcazəli şəfaət iki hissəyə ayrılır:**
  - Peyğəmbərlər, nəbilər, mələklər, tövhid əhli və uşaqların edəcəyi şəfaətdir.
    - Tövhid əhlinin cənnətdə dərəcələrinin yüksəlməsi üçün edilən şəfaət
    - Tövhid əhlindən cəhənnəmə girməyə layiq olanların ora girməməsi üçün edilən şəfaət
    - Tövhid əhlindən cəhənnəmə girənlərin ordan çıxmaları üçün edilən şəfaət
  - Peyğəmbərə (Allahın salamı və salavatı onun üzərinə olsun ) məxsus olan və başqasının ona ortaq olmadığı şəfaətdir.
    - Böyük şəfaət
    - Əmisi Əbu Talibin əzabının yüngülləşməsi üçün edəcəyi şəfaət
    - Cənnətin qapısının açılmağı üçün edəcəyi şəfaət
- **Bəndənin gücü yetdyi şeylərdə şəfaət etməsi**
  Bu dörd şərtlə doğru olur:
  **1.** Şəfaət edənin yanında olması;
  **2.** Sağ  olması;
  **3.** Gücü yetməsi;
  **4.** Şəfsət edəni səbəb olaraq görməsi.
- **Qadağan olunan şəfaət**
  Bu, Quranın qadağan etdiyi şəfaətdir və yalnız Allahın qadir olduğu şeylərdə ondan başqasından istənilən şəfaətdir.
  **Hökmü:** Böyük şirkdir.

**ÜÇÜNCÜ QAYDA**(1)

Peyğəmbər (Allahın salamı və salavatı onun üzərinə olsun) fərqli ibadət edən insanlara göndərilmişdi. Bəziləri mələklərə, bəziləri peyğəmbərlərə və salehlərə, bəziləri ağaclara və daşlara, bəziləri isə günəşə və aya ibadət edirdilər. Peyğəmbər (Allahın salamı və salavatı onun üzərinə olsun) onlar arasında heç bir fərq qoymadan onların hamsı ilə vuruşdu. Allahın bu kəlamı deyiləni isbat edir: “**Fitnə aradan qalxana qədər və din tamamilə yalnız Allaha aid edilənədək onlarla vuruşun!”** [Ənfal surəsi: 39].

O zaman bəzilərinin günəşə və aya ibadət etmələri, Allahın bu kəlamında deyilmişdir: “**Gecə və gündüz, günəş və ay Onun dəlillərindəndir. Əgər siz Ona ibadət edirsinizsə, onda günəşə və aya səcdə etməyin, onları yaradan Allaha səcdə edin**.” [Fussilət surəsi:37].

Həmin dövrdə bəzi insanların mələklərə ibadət etmələri, aşağıdakı ayədə deyilmişdir: “**O sizə mələkləri və peyğəmbərləri özünüzə tanrılar qəbul etməyi buyurmaz.**” [Əli İmran surəsi: 80].

Bir qism insanların peyğəmbərlərə ibadət etmələri isə Allahın bu kəlamında qeyd edilmişdir: “**Allah deyəcəkdir: "Ey Məryəm oğlu İsa! Sənmi insanlara: "Allahı qoyub məni və anamı iki məbud qəbul edin!"– demişdin?" İsa deyəcək: "Sən pak və müqəddəssən! Haqqım olmayan bir şeyi demək mənə yaraşmaz. Əgər bunu demiş olsaydım, əlbəttə, Sən onu bilərdin. Sən mənim qəlbimdə olanları bilirsən, mən isə Sənin Özündə olanları bilmirəm. Şübhəsiz ki, qeybləri bilən Sənsən!**” [Maidə surəsi: 116].

Bir qrup adamın salehlərə ibadət etmələri haqqında isə bu ayədə deyilmişdir: **“Onların yalvardıqları məbudların özləri də Rəbbinə – hansı daha yaxın olacaq deyə vəsilə axtarırlar, Onun rəhmətini umurlar, əzabından qorxurlar**.” [İsra surəsi: 57].

Bir dəsyə adamın isə ağaclara və daşlara ibadət etməsi bu ayədə öz əksini tapmışdır: “**Siz tapındığınız Lat və Uzzanı gördünüzmü? Həmçinin üçüncü olan Mənatı da?**” [Nəcm surəsi: 19-20]. Əbu Vaqid Əl-leysi (Allah ondan razı olsun) deyir ki, " Peyğəmbərlə (Allahın salamı və salavatı onun üzərinə olsun) bərabər Huneyn adlanan yerə çıxdıq. Həmin vaxt biz İslamda yeni idik. O vaxtlar müşriklərin sidr ağacı var idi, onun yanında etikaf edirdilər və silahlarını həmin ağacdan asırdılar ki, guya ağac bu silahalara güc verəcək. Həmin ağaca asılqan ağacı deyirdilər. Biz də bir sidr ağacının yanından keçdikdə dedik: Ey Allahın Rəsulu, onların asılqan ağacı olduğu kimi, bizə də bir asılqan ağacı təyin et. Peyğəmbər (Allahın salamı və salavatı onun üzərinə olsun) dedi: “***Allahu Əkbər! Bu sizdən əvvəlkilərin yoludur. Nəfsim əlində Olana and olsun ki, bənu israilin Musaya dediyini siz mənə dediniz:* “Onların ilahları olduğu kimi bizə də bir ilah düzəlt. O (Musa) dedi: “siz cahil bir qövmsünüz.” *Siz özünüzdən əvvəlkilərin yoluna uyacaqsınız.”*** Tirmizi rəvayət edib və səhih olduğunu bildirib.

(1). Bu qayda, "şirk yalnız bütlərə ibadət etməklə olur"-deyənlərə açıq aydın bir cavab və rəddir. Çünki şərii dəlillər həmin dövrdə həm bütlərə, həm də digər ibadət olunan batil inanclara ibadət mövzusunda varid olmuşdur. Peyğəmbər *(Allahın salamı və salavatı onun üzərinə olsun)* onların arasında fərq qoymamışdır, əksinə onların hamsını tağutlardan saymışdır. Dinin yalnız Allah üçün olması üçün onların hamsı ilə savaşmışdır.

**DÖRDÜNCÜ QAYDA**

Günümüzdə olan müşriklərin şirki əvvəlkilərin şirkindəən daha şiddətlidir. Çünki, əvvəlkilər rahatlıq halında Allaha şərik qoşurdular, çətinlik anında isə ixlaslı olurdular. Zamanımızda olan müşriklər isə asanlıqda da, çətinlikdə də şirk qoşurlar.

Dəlil Allahın bu kəlamıdır: (**Onlar gəmiyə mindikləri zaman, dini yalnız Allaha məxsus edərək, Ona yalvarırlar. Allah onları xilas edib quruya çıxaran kimi, yenə də Ona şərik qoşurlar**) [Ankəbut surəsi: 65]. **(1)**

(1) Müəllif (Allah ona rəhmət etsin) bu qaydada günümüzdə olan şirk əhlinin mövqeyinin təhlükəsini bəyan edir. Belə ki, bunların şirki keçmişdə olan müşriklərin şirkindən daha betərdir. Çünki, günümüzdə olan şirk əhli Allaha çətinlik anında da, rahatlıq anında da şərik qoşurlar. Amma keçmişdə olan müşriklər isə Allaha yalnız rahatlıq anında şərik qoşurdular, çətinlik anında isə Allahın təkliyini etiraf edirdilər.

Əgər Peyğəmbərin (Allahın salamı və salavatı onun üzərinə olsun ) onları dəvət etmək üçün göndərildiyi kafirlərin bunlardan şirki daha az olmasına baxmayaraq Peyğəmbər (Allahın salamı və salavatı onun üzərinə olsun ) onları təkfir etdisə, bəs onda hər bir halında - asanlıqda da, çətinlikdə də Allaha şərik qoşanların halı necədir?! Şəkk yoxdur ki bunların küfrü daha betərdir.

| Dörd qayda kitabı şübhələrin kəşfi kitabının xülasəsi sayılır | Müqəddimədə səadətin ünvanından bəhs olunur | Səadətin ünvanı | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | Nemət veriləndə şükr etmək: | Nemət özü bir sınaqdır. Buna dəlillərdən **"Biz sizi sınamaq üçün şər və xeyirlə imtahana çəkirik."** | **Nemətə şükr etmək** | Rububiyyət tövhidi ilə bağlı olanı | Necə ki, cənnət yalnız Allahdan istənilir-çünki cənnətə sahib olan Odur, ruzi də yalnız Allahdan istənilir. Ona görə də qəlbin yalnız Allaha bağlanması lazımdır. |
| | | | | | | Uluhiyyət tövhidi ilə bağlı olanı | Qəlbi ilə: Etiraf və iqrar edir ki, bütün nemətlər Allahdandır. |
| | | | | | | | Dil ilə: Dili ilə şükr edir: "**Bu, Rəbbimin lütfündəndir ki, məni sınağa çəksin, görək şükür edəcəyəm, yoxsa nankor olacağam** " |
| | | | | | | | Əzaları ilə şükr edir: Belə ki, verilən nemətləri nemət verənin şükrünə istifadə edir. Məsələn malın şükrü onu Allahın itaətində xərcləməklə olur, elm nemətinin şükrü onu öyrənmək istəyənlərə öyrətməklə olur. |
| | | | Müsibət gələndə səbr etmək | | | **Müsibət zamanı insanların halları** | **Qəzəbli**: hökmü böyük günahlardandır, hətta hərdən kiçik şirkə qədər çata bilər. Qəzəblənmək qəlblə, dillə və əzalarla olur. |
| | | | | | | | **Səbr edən**: səbrin hökmü ümmətin icması ilə vacibdir. Səbr də qəlb, dil və əzalarla olur. Səbr öz adı kimidir, dadı acıdır amma nəticəsi baldan da şirindir. |
| | | | | | | | **Razı qalan:** hökmü müstəhəbdir, Rəbbinə razı qalmağın kamilliyinə görə bilir ki, başına gələn hər bir müsibət Allahın |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | qədərindəndir və bu da onun üçün xeyirlidir. |
| | | | | | **Şükr edən**: bu mərtəbələrin ən üstünüdür və allaha daha sevimlidir. Bu yalnız Allahın şükr edən qullarına aiddir. |
| | | | Günah işləyəndə bağışlanma diləyər | | |
| | | | Nəyə görə tövhidi və şirkin təhlükəsini öyrənirik? | | **Hənifilik:** İbrahimin dinidir, o da Allahın səni Ona ibadət etmək üçün yaratdığını bilməyindir.İbadət də yalnız tövhid üzərində olarsa ibadət adlanır. əgər şirk ibadətə qarışarsa onu pozar və əməli batil edər, onu edəndə əbədi cəhənnəmlik olar. |
| | **Dörd qayda** | **Birinci qayda:** Peyğəmbərin (Allahın salamı və salavatı onun üzərinə olsun) cihad etdiyi kafirlər rububiyyət tövhidini iqrar edirdilər. Lakin uluhiyyət tövhidini qəbul etmirdilər. Ona gör də bu iqrar onları islama daxil etmədi. | | | |
| | | **Ikinci qayda**: Kafirlər bütlərə, şəfaət və Allaha yaxınlaşmaq üşün ibadət edirdilər. | | | |
| | | **Üçüncü qayda**: Peyğəmbər (Allahın salamı və salavatı onun üzərinə olsun) müxtəlif şeylərə ibadət edən insanlara göndərildi, lakin onların şirki arasında fərq qoymadı. | | | |
| | | **Dördüncü qayda**: Günümüzdə olan şirk əhlinin şirki keçmişdə olanlardan daha betərdir. | | | |

# DÖRD QAYDA KİTABININ İMTAHANI

**Ad:**

**Tövhid kitabından əzbərlədiyin miqdar:**

**Dörd qaydanı əzbər bilirsənmi?**

1) Aşağıda yazılanların hər biri üçün Quran və ya sünnətdən dəlil yaz

| | |
|---|---|
| Nemət bir imtahandır | |
| Müşriklər rububiyyət tövhidi qəbul edirdilər | |
| Müşriklərin məqsədi Allaha yaxınlaşmaq idi | |
| İnkar olunan şəfaət | |
| Müşriklər günəşə və aya ibadət edirdilər | |
| Müşriklər mələklərə ibadət edirdilər | |
| Müşriklər peyğəmbərlərə ibadət edirdilər | |
| Müşriklər saleh insanlara ibadət edirdilər | |
| Müşriklər daşlara və ağaclara ibadət edirdilər | |
| Keçmişdəki Müşriklər çətinlik vaxtı tək Allaha ibadət edirdilər, asanlıqda isə Allaha şərik qoşurdular | |
| Şirkin dəlili nədir? | |
| | |

2) Aşağıdakılarla bağlı bildiyini yaz:

| SUAL | CAVAB | |
|---|---|---|
| Tövhidi nə üçün öyrənirik? | 1)<br>2)<br>3)<br>4)<br>5) | 6)<br>7)<br>8)<br>9) |
| Nə üçün dörd qayda kitabını öyrənirik? | 1)<br>2)<br>3)<br>4) | |
| Dörd qayda kitabı hasnı hissələr bölünür? | 1)<br>2)<br>3) | |
| Dörd qayda kitabı hansı kitabın müxtəsəridir? | | |
| Nə üçün birinci şübhələrin kəşfi kitabını öyrənmirik? | | |
| Səadətin ünvanı nələrdir? | 1)<br>2)<br>3) | |
| Hənifilik nədir? | | |
| Dörd qayda kitabını öyrənməkdə nə kimi faydalar var? | | |
| Allah dostları kimlərdir? İbn Teymiyyənin sözünü yaz | | |

| | |
|---|---|
| **Bunun dəlili nədir?** | |
| **Nemətin şükrü nə ilə olur? Misal gətirərək açıqla** | 1- |
| | 2- |
| | 3- |
| **Bəndənin Allaha bağlılığı necə olmalıdır?** | |
| **Müsibət anında insanlar neçə yerə bölünür və hansılardır?** | 1)<br>2)<br>3)<br>4) |
| **Şəfaətin lüğti və şərii mənası nədir?** | |
| **Şəfaət neçə yerə bölünür və hansılardır?** | 1)<br>2) |
| **İsbat olunan şəfaətin şərtləri nədir?** | 1)<br>2)<br>3) |
| **İsbat olunan şəfaət neçə yerə bölünür?** | |
| **İsbat olunan şəfaətin qismlərini yaz** | 1)<br>2) |
| **Birinci qaydanın xülasəsini yaz** | |
| **İkinci qaydanın xülasəsini yaz** | |

| | |
|---|---|
| **Üçüncü qaydanın xülasəsini yaz** | |
| **Dördüncü qaydanın xülasəsini yaz** | |
| **Bir əmələ şirk qarışarsa o əməlin hökmü nədir? Dəlili ilə yaz** | |

# Dindən çıxaran amillərdən

## müsəlmanları çəkindirməyin vacibliyi


Fəzilətli şeyx

Heysəm bin Muhamməd bin Cəmil Sərhan

Məscidu Nəbəvinin tədris idarəsinin keçmiş müəllimi,

www.attasseel-alelmi.com

saytının rəhbəri


Allah onu, valideynlərini və bu kitabın çıxarılmasında yardım edənləri bağışlasın.

# Dindən çıxaran amillərdən müsəlmanları çəkindirməyin vacibliyi

Heysəm bin Muhammməd bin Cəmil Sərhan

"I" nəşr

Bütün hüquqlar qorunur©

Kitabı çap edib pulsuz paylamaq istəyənlər müəllifdən izn almalıdırlar.

Əlaqə üçün poçt ünvanı

islamtorrent@gmail.com

## İslamdan çıxaran etiqadlar kitabının mətni

Şeyxülislam (Allah ona rəhmət etsin) demişdir:
Rəhimli və Mərhəmətli Allahın adı ilə

Bil ki, insanı İslamdan çıxardan on etiqad vardır:

*Birinci:* Tək olub, Şəriki olmayan Allaha ibadətdə şərik qoşmaq. Allah Təalə buyurur: ***"Allah Ona şərik qoşanı əsla bağışlamaz. amma ondan aşağısını istədiyinə bağışlayar."*** *(Nisa surəsi:48).* ***"Kim Allaha şərik qoşsa, Allah ona cənnəti haram edər, onun düşəcəyi yer cəhənnəmdir. Zalimlərə də yardımçı tapılmaz."***(Maidə surəsi:72). Allahdan başqasına, cinə, yaxud qəbrə qurban kəsməyi buna misal çəkmək olar.

***İkinci:*** Kim Allahla özü arasında vasitəçilər tutaraq onlara dua edərsə, onlardan şəfaət diləyərsə və onlara təvəkkül edərsə, alimlərin yekdil rəyi ilə kafir olar.

***Üçüncü:*** Kim müşrikləri kafir görməzsə, yaxud onların küfründə şəkk edərsə, yaxud onların dinlərinin doğru olduğunu etiqad edərsə, kafir olar.

***Dördüncü:*** Kim etiqad edərsə ki, Peyğəmbərdən (Ona Allahın salavatı və salamı olsun) başqasının yolu Peyğəmbərin (Ona Allahın salavatı və salamı olsun) yolundan daha doğrudur, yaxud etiqad edərsə ki, başqasının hökmü onun hökmündən daha yaxşıdır, artıq kafir olmuşdur. Buna misal tağutların hökmlərini onun hökmündən üstün tutanları göstərmək olar.

***Beşinci:*** Kim Peyğəmbərin (Ona Allahın salavatı və salamı olsun) gətirdiyi hər hansı bir şeyə nifrət edərsə, hətta ona əməl etsə belə, kafir olar.

***Altıncı:*** Kim Allahın dinindən hər hansı bir şeyi, savabı və ya cəzanı lağa qoyarsa, kafir olar. Allah təala buyurur: "***De ki, siz Allaha, Onun ayələrinə, Onun Peyğəmbərinə istehza edirdiniz? Üzr gətirməyin, artıq iman gətirəndən sonra kafir oldunuz***." *(Tövbə surəsi:66).*

***Yeddinci:*** Sehr, bunun növlərindən biri də iki nəfəri bir-birindən uzaqlaşdırmaq, yaxud birləşdirmək üçün olanıdır. Kim sehr edərsə, yaxud ona razı olarsa, kafir olar. Dəlil də Allahın bu kəlamıdır: ***"Biz ancaq bir sınağıq, sən gəl kafir olma!" – deməmiş onu heç kəsə öyrətmirdilər."*** *(Baqara surəsi: 102).*

***Səkkizinci:*** Müsəlmanlara qarşı kafirlərə yardım etmək. Sübutu Allahın bu kəlamıdır:"***Sizdən kim onları özünə dost tutsa, o da onlardandır. Həqiqətən Allah zalımları doğru yola yönəltməz***." *(Maidə surəsi:51).*

***Doqquzuncu***: Kim etiqad edərsə ki, Xıdır (Allahın ona salamı olsun) Musanın (Allahın ona salamı olsun) şəriətinə tabe olmadığı kimi, kimsə Peyğəmbərin (Ona Allahın salavatı və salamı olsun) şəritənə müxalif olub ona tabe olmaya bilər, o artıq kafir olmuşdur.

***Onuncu:*** Allahın dinindən üz döndərmək, onu öyrənməmək və əməl etməmək. Dəlil Allahın bu kəlamıdır: "***Rəbbinin ayələri yadına salındıqdan sonra onlardan üz döndərən kəsdən daha zalım kim ola bilər? Şübhəsiz ki, Biz günahkarlardan intiqam alacağıq.***" *(Səcdə surəsi: 22).*

Bu etiqadları zarafatla, ciddiyyətlə, yaxud qorxaraq edənlər arasında fərq yoxdur. Burda yalnız məcbur edilən istisnadır. Bunların hamsı da ən təhlükəli və ən çox baş verən hallardır. Müsəlman bunlardan çəkinməli və özünü bunlara düşməkdən həzər etməlidir. Allahın qəzəbinə və şiddətli əzabına səbəb olan hər bir şeydən Allaha sığınırıq. Allahın salamı və salavatı Muhammədin üzərinə olsun.

# Şərh

## Müəllifin müqəddiməsi

**Rəhimli və mərhəmətli Allahın adı ilə**
**Bil ki, islamdan çıxaran etiqadlar ondur**

**Nə üçün alimlər kitablarını Allahın adı ilə başlayırlar?**

- Allahın adı ilə təbərrük edirlər
- Özlərindən əvvəlki alimlərin ənənəsini davam etdirirlər.
- *"Bismilləhsiz başlayan hər iş yarımçıqdır."* hədis zəif olsa belə bu hədisə istinad edərək
- Allahın kitabına və peyğəmbərlərin yoluna müvafiq olmaq üçün

**Quran və sünnədə say məhdudiyyəti qeyd olunarsa:**

- Əgər Quran və sünnədə məhdudiyyət qoyulmuş saydan artığını görsək, deməli saya məhdudiyyət yoxdur. Belə ki, o sayın üzərinə Quran və sünnədə deyilən digər sayda əməlləri də artırmaq olar. Məsələn*"beş əməl fitrətdəndir.."*, yaxud, “*yeddi həlakedici günahdan çəkinin"* hədisləri kimi. (Digər dəlillərə baxdıqda görürük ki, fitrətdən hesab edilən əməllərin sayı beşdən çoxdur. Yaxud digər hədislərə nəzər saldıqda görürük ki, həlakedici günahların sayı yeddidən çoxdur).
- Əgər Quran və sünnədə həmin saydan artığını tapa bilməsək, deməli o say məhdudiyyətli saydır, yəni o sayın üzərinə artırmaq olmaz. Məsələn Cəbrayıl hədisində islamın əsas əməllərinin beş olması, yaxud imanın əsaslarının altı olması haqqında deyilən məhdud sayları misal çəkmək olar.

Nə üçün bəzi hallarda say qeyd olunur, amma o say məqsədli olmur?

Bu, Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) gözəl üslubda dərs keçməsini göstərir. O istəyirdi ki, həmin məclisdə olanlar qeyd olunanları dinləyib əzbərləsinlər. Sayla əzbərlədikdə gələcəkdə onu xatırlamaq da asan olur.

Nə üçün islamdan çıxaran məsələlər kitabını öyrənirik?

İslamdan çıxaran məsələlərdən uzaq olmaq və belə hala düşməmək üçün öyrənirik. Bu kitabda çox böyük faydalar vardır. Dəstəmazımızın və namazımızın batil olmaması üçün dəstəmazı və namazı pozan amilləri öyrəndiyimiz kimi, tövhidi pozan səbəbləri də bilməyimiz vacibdir. Huzeyfə bin əl-Yəmən (Allah ondan razı olsun) demişdir: *"İnsanlar Allah Rəsulundan (Allahın salamı və salavatı onun üzərinə olsun) xeyir əməllər haqda soruşanda, mən şər əməllər haqda soruşurdum ki, belə əməllərdən qoruna bilim".*

İslamdan çıxaran etiqadlar nə deməkdir?

İnsanın dinini korlayan, onu islam dairəsindən çıxarıb böyük küfrə salan etiqad və əməllərdir. İslam - *Allaha tövhidlə təslim olmaq, itaətlə boyun əymək, şirk və şirk əhlindən uzaq olmaqdır.*

*Bu sözün mənası:*

İnsanı islam dairəsindən çıxarıb böyük küfrə salan etiqad və əməllərdir. Allah bizi belə günaha düşməkdən salamat etsin.

*Nəyə görə alimlər bəzən "islamdan çıxaran " bəzən isə "pozan" kəlimələrini işlədirlər?*

Oxucu üçün fərqlilik olsun deyə eyni mənalı sözlərdən istifadə edilir. Namazı pozan, namazdan çıxaran və s.

*İslamdan çıxaran bu etiqadlar barədə alimlər ittifaq ediblərmi?*

Bəli, alimlər bu haqda ittifaq ediblər.

*Onların dəqiq sayı varmı?*

Xeyr dəqiq sayı yoxdur.

*Bəs nə üçün burada on etiqad qeyd olunub?*

Bu etiqadlar həm ən təhlükəli hesab edilir, həmçinin əzbərəyib anlamaq asan olsun deyə on etiqad qeyd olunub.

İslamdan çıxaran məsələləri qısaca olaraq saymaq olarmı?

| | | | |
|---|---|---|---|
| Peyğəmbərin *(Allahın salamı və salavatı onun üzərinə olsun)* dəvətini eşidən və ona iman gətirməyən yəhudi və xristianların **küfründə şəkk etmək.** | **Etiqad** Məsələn, Allah-dan başqasının fayda verəcəyini etiqad etmək. | **Əməl** Məsələn sehr. | **Söz** Məsələn Allahı, Rəsulunu və dini söymək kimi |

*Peyğəmbər (Allahın salamı və salavatı onun üzərinə olsun) islamdan çıxaran on məsələni zikr edibmi və buna dəlil nədir?*

Bəli bunların hamsını Peyğəmbər *(Allahın salamı və salavatı onun üzərinə olsun)* zikr edib və bunların hamsına Quran və sünnədən ayrı-ayrılıqda dəlil vardır. Alla Təalə buyurur: **"Biz ayələrimizi belə müfəssəl izah edirik ki, günahkarların yolu açıq-aydın bilinsin"**

*Kimsə islamdan çıxaran əməllərdən birini edərsə, həmin adamın əməlini görən və bu haqda bilən hər kəs onu təkfir edə bilərmi?*

Xeyr edə bilməz, çünki müəyyən şəxsin təkfirində mütləq rəbbani alimlərə və şəriət məhkəmələrinə müraciət etmək lazımdır. Peyğəmbər *(Allahın salamı və salavatı onun üzərinə olsun)* demişdir: *"Əgər bir kişi müsəlman qardaşına "ey kafir" – deyərsə, bu söz o ikisindən birinə qayıdar".*

*İslamdan çıxaran məsələlər haqda hansı alimlər kitablar yazıblar?*

Bu haqda fəqihlər fiqh kitablarında mürtədlərin hökmündən bəhs edən fəsillərdə ətraflı danışıblar. Bu mövzuda müstəqil yazılmış ilk əsər isə bu kitabdır.

*İslamdan çıxaran məsələlərdə əməllə, əməli edən arasında fərq qoyulurmu?*

Bəli mütləq fərq qoyulmalıdır. Çünki hər küfrə düşən kafir olmur. Müəyyən şəxsi təkfir etmək üçün mütləq həmin adama hüccət qaldırılmalı və onda olan şübhələr aparılmalıdır. Müəllifin bu kitabı yazmaqda məqsədi müəyyən şəxsləri təkfir etmək deyil, islamdan çıxaran məsələlərdən çəkindirməkdir. Bunu da ümmətə tövsiyə üçün edib.

*İslamdan çıxaran etiqadlar kitabını öyrənən insan nə etməlidir?*

Müsəlman bu etiqad və əməllərdən çəkinməli, ehtiyat etməlidir. Eyni zamanda başqalarını da bu etiqadlardan çəkindirməlidir.

Fərdlərə kafir hökmü vermək isə böyük alimlərin və şəriət məhkəmələrinin işidir. Allah Təalə buyurmuşdur: **"Sizə özünüzdən elə bir Elçi gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir. Əgər onlar üz döndərsələr, de: 'Mənə Allah yetər. Ondan başqa ilah yoxdur. Mən Ona təvəkkül etdim. O, böyük Ərşin Rəbbidir!'"**.

## Birinci məsələ

Tək olub, Şəriki olmayan Allaha ibadətdə şərik qoşmaq. Allah Təalə buyurur: "***Allah Ona şərik qoşanı əsla bağışlamaz. Amma ondan aşağısını istədiyinə bağışlayar***." *(Nisa surəsi:48)*. "***Kim Allaha şərik qoşsa, Allah ona cənnəti haram edər, onun düşəcəyi yer cəhənnəmdir. Zalimlərə də yardımçı tapılmaz***." *(Maidə surəsi:72)*. Allahdan başqasına, cinə, yaxud qəbirə qurban kəsmək də bu qəbildəndir.

### Şirkin növləri

| Kiçik şirk | Böyük şirk |
|---|---|
| Allahın səbəb etmədiyi bir şeyi səbəb götürməkdir. Böyük şirkə aparan hər bir yol, kiçik şirkdir. | (Müəllifin nəzərdə tutduğu bu növ şikrdir). Allaha aid olan məsələlərdə Ondan başqasını Allahla bərabər tutmaq. |
| - İslamdan çıxarmır;<br>- Hansı əməldə olarsa, o əməli batil edir;<br>- Qanı və malı halal etmir;<br>- Sahibi əbədi cəhənnəmlik deyil;<br>- Şəriətdə adı kiçik şirk kimi gəlir. Şəriətdə şirk və küfr kəliməsi qeyri müəyyənlik halında ifadə edilərsə, kiçik şirk nəzərdə tutulur. | - İslamdan çıxarır;<br>- Bütün əməlləri batil edir;<br>- Qanı və malı rəhbərə halal edir;<br>- Sahibini əbədi cəhənnəmlik edir;<br>- Şəriətdə adı böyük şirk kimi gəlir.<br>- Şəriət əhkamlarında (əl) artiklı ilə ifadə edilərsə, bu, böyük şirkin nəzərdə tutulmasını bildirir. |

## Böyük şirk bağışlanırmı?

İnsan böyük şirk etiqadı ilə dünyasını dəyişərsə, Allah onu bağışlamaz. Allah Təalə buyurur: **"Həqiqətən Allah Ona şərik qoşanı əsla bağışlamaz".** Əgər o, şirkdən tövbə edərsə, günahı bağışlanır. Allah Təalə buyur**: "(Ya Peyğəmbər! Mənim adımdan qullarıma) de: "Ey Mənim (günah törətməklə) özlərinə zülm etməkdə həddi aşmış bəndələrim! Allahın rəhmindən ümidsiz olmayın. Allah (tövbə etdikdə) bütün günahları bağışlayar. Həqiqətən, O bağışlayandır, rəhm edəndir!"** *(Zumər 53)*.

Tövbə qapısı Günəş batdığı yerdən çıxana qədər açıqdır. Allah Rəsulu (Allahın salamı və salavatı onun üzərinə olsun) buyurmuşdur: "*Tövbə qapısı bağlanmadıqca hicrət də davam edəcəkdir. Tövbə qapısı isə günəş batdığı yerdən çıxana qədər bağlanmayacaqdır.*" Həmçinin insan son nəfəsini verənə qədər tövbə qapısı onun üçün açıqdır. Allah Təalə buyurur**: "Günah işlər görməkdə davam edərək ölüm yetişən anda: "Mən indi tövbə etdim" – deyənlərin və kafir olaraq ölənlərin tövbəsi qəbul olunmaz."** *(Nisa 18)*.

## Haramların qismləri

**Kiçik günahlar:** Bunlar şəriətin haram etdiyi, lakin haqqında xüsusi cəzalar vəd olunmayan günahlardır.

**Böyük günahlar:** Haqqında lənət, Allahın rəhmətindən qovulmaq, onu edəndən uzaq olmaq, edənin kafirlərdən, yaxud müşriklərdən olması, yaxud möminlərdən olmaması kimi təhdidlər, yaxud onu edənin ən pis heyvanlara bənzədilməsi kimi xüsusi cəzalar vəd olunan günahlara böyük günahlar deyilir.

Kiçik şirk: Böyük şirkdən kiçik, böyük günahlardan isə böyükdür.

Böyük şirk: Ən böyük günahdır

**Sayı:** Dəqiq sayı gəlməyib, yuxarıda qeyd olunan qaydaya əsasən günahın böyük olub-olmaması təyin olunur.

Edənlə bağlı hökmlər:

- İmanı naqis mömin, yaxud imanı ilə mömin, günahı ilə fasiqdir
- Ondan olan iman miqdarında sevilir, onda olan günah miqdarında da nifrət edilir.
- Günah etdiyi halda onunla oturub-durulmur

Dərəcələri: Dərəcələri müxtəlifdir. Hədisdə gəlir ki: *"Böyük günahların ən böyüyü şirkdir.."*

Hökmü: Böyük günah edən mütləq tövbə etməlidir. Hədisdə gəlir ki *"Təziyədə üz-gözünə vuran ölməzdən əvvəl tövbə etməzsə..."*. Başqa bir hədisdə belə deyilir "... *Əgər böyük günahlardan çəkinərsə...*"

## Kəsilən heyvanın növləri:

| İcazəli olan: | Allahdan başqasına sevgi və təzim olaraq kəsilən heyvan: | Allah üçün kəsilən: |
|---|---|---|
| Yemək, qonağa təqdim etmək, yaxud satmaq məqsədi ilə kəsilən heyvanlar icazəli növə daxildir. | Müəllifin nəzərdə tutduğu növ budur.<br>Bu əməl böyük şirkdir. Cinlərə və qəbirlərə qurban kəsmək bu növün ən bariz misalıdır. | Bu, şəriətin əmr etdiyi kəsim növüdür. Qurbanlıq və sədəqə olaraq heyvan kəsmək bu növə aiddir. |

# İkinci məsələ

**Kim Allahla özü arasında vasitəçilər tutaraq onlara dua edərsə, onlardan şəfaət diləyərsə və onlara təvəkkül edərsə icma ilə kafir olar.**

## Şəfaətin növləri

### Yalnız Allahın qadir olduğu şəfaət:

**Qadağan olunan şəfaət:** *(Müəllifin nəzərdə tutduğu bu qismdir)* Quranın qadağan etdiyi, həmçinin təkcə Allahın qadir olduğu şeyləri başqasından istəməkdir. Bu şəfaətin hökmü böyük şirkdir.

**İcazə verilən şəfaət:** Bu, Allahın Özünə aid etdiyi şəfaətdir ki, bunu Allahdan başqasından istəmək olmaz. Bu şəfaətin şərtləri:
1-Allahın şəfaətə izn verməsi, 2- Şəfaət edəndən razı olması, 3- Şəfaət olunandan razı qalması.

**Peyğəmbərlərin, mələklərin və tövhid əhlinin etdiyi ümumi şəfaət:**

1-Dərəcələrin yüksəlməsi üçün edilən şəfaət;
2- Tövhid əhlindən olub cəhənnəmə getməyə layiq görülənlərin oraya getməməsi üçün edilən şəfaət;
3- Cəhənnəmə girən tövhid əhlinin ordan çıxması üçün edilən səfaət.

**Peyğəmbərə (Allahın salamı və salavatı onun üzərinə olsun) məxsus olan şəfaət:**

1- Qiyamət günü haqq-hesabın başlaması üçün edəcəyi böyük şəfaət;
2- Əmisi Əbu Talibin əzabını yüngülləşdirməsi üçün etdiyi şəfaət;
3- Cənnətin qapılarının açılması üçün edəcəyi şəfaət.

### Məxluqun gücü yetdiyi şəfaət:

Dörd şərtlə icazəlidir:
1-Şəfaət istədiyi sağ olmalıdır;
2- Onun yanında olmalıdır;
3- Bacarığı daxilində olmalıdır;
4- Onun səbəb olduğunu etiqad etməlidir.

Kiməsə “Mənim üçün Allaha dua et!” - demək doğrudurmu?

Bu istək zamanı istənilən qarşısında zəlillik hissləri olarsa, bu kiçik şirkə aiddir. Lakin sağ, yanında və bacarığı daxilində olan birindən istənilsə, istədiyi kimsəni də səbəb hesab etsə, bu icazəlidir. Amma bu növ duanı istəməmək daha yaxşıdır.

## Təvəkkül:

Bu sidqlə Allaha etimad edərək Ona güvənmək və şərii səbəblərdən tutunmaqdır.

**Allahdan başqasına təvəkkül etmək böyük şirkdir. (Müəllifin nəzərdə tutduğu bu növdür)**

Bu, ibadət və zəlilliklə olan təvəkküldür. Təvəkkül edilənə mütləq etimad etmək bu əməli böyük şirk edir. Çünki onun qarşısında zəlil vəziyyətdə dayanır, xeyir və şərrin onun əlində olmasını etiqad edir. Misal olaraq, ölülərə təvəkkül etməyi göstərmək olar.

**Kiçik şirk:**

Bu, diri olan birinə zəlilliklə etimad etməkdir. Buna misal kimisə səbəbdən üstün edərək ruzi qazanmaqda ona etimad etməyi göstərmək olar.

**İcazəli:**

Bu diri olan birinə onun qarşısında zəlil olmadan hər hansı bir işdə ona vəkalət verməkdir.

"Filankəsə təvkkül etdim!", yaxud "Allaha, sonra filankəsə təvəkkül etdim!" demək doğrudurmu?

Bunların heç biri doğru ifadə deyildir. Çünki təvəkkül qəlbin əməlidir, onu da Allahdan başqasına aid etmək olmaz. Lakin "Filankəsə vəkalət verdim" demək olar. Peyğəmbər (Allahın salamı və salavatı onun üzərinə olsun) bəzi işlərini səhabələrə tapşırıb onlara vəkalət verərdi.

# Üçüncü məsələ

Kim müşrikləri kafir görməzsə, yaxud onların küfründə şəkk edərsə, yaxud onların dinlərinin doğru olduğunu etiqad edərsə, kafir olar.

İslamda müşriklərin hokumü:

Peyğəmbərin *(Allahın salamı və salavatı onun üzərinə olsun)* dəvəti çatdıqdan sonra ona iman gətirməyən hər bir kəs kafirdir. Allah Təalə buyurur: "***Kim islamdan başqa bir din ardınca gedərsə o din ondan qəbul olmaz və o da axirətdə ziyan çəkənlərdən olar.***"

Kitab əhli də müşriklərdən sayılırmı?

Bəli, Peyğəmbərə *(Allahın salamı və salavatı onun üzərinə olsun)* iman gətirməyən kitab əhli də müşriklərdən sayılır. Allah Təalə buyurur: ***"Kitab əhlindən Allaha və qiyamət gününə iman gətirməyən, Allahın və Peyğəmbərinin haram buyurduqlarını haram bilməyən və haqq dini (islamı) qəbul etməyənlərlə zəlil vəziyyətə düşüb öz əlləri ilə cizyə verincəyə qədər vuruşun***." Peyğəmbər *(Allahın salamı və salavatı onun üzərinə olsun)* buyurmuşdur: "*Muhammədin nəfsi əlində olana and olsun ki, bu ümmətdən hər hansı bir yəhudi və ya xristian mənim adımı eşidər, sonra mənə iman gətirmədən ölərsə, o mütləq cəhənnəm əhlindən olar*"

Bu onlara verdiyimiz əhdi pozmağın icazəli olması anlamına gəlir?

Kimin onlarla əhdi varsa, o əhdi qorumaq ona vacibdir. Allah Təalə buyurmuşdur: " ***Nə qədər ki, onlar sizinlə düzgün davranır, siz də onlarla düzgün davranın. Həqiqətən, Allah müttəqiləri sevir."*** Müşrklərlə davranışda insanlar üç qismə bölünür:

- Orta yolda olan əhli sünnə vəl camaatdır ki, onlar kafirlərin bayramlarında və şənliklərində iştirak etmirlər. Lakin onlara Verdiyimiz əhdi yerinə yetirir, onlara qarşı həddi aşmır, onlarla alış-veriş edir və onları tövhidə dəvət edirik.
- Digər tərəf isə onları öldürməklə, qarət etməklə və vurmaqla, onlara qarşı hədlərini aşırlar.
- Bir tərəf kafirlərin bayramlarında, şənliklərində və ibadətlərində iştirak edirlər.

# Dördüncü məsələ

Kim etiqad edərsə ki, Peyğəmbərdən *(Ona Allahın salavatı və salamı olsun)* başqasının yolu Peyğəmbərin *(Ona Allahın salavatı və salamı olsun)* yolundan daha doğrudur, yaxud başqasının hökmü onun hökmündən daha yaxşıdır - artıq kafir olmuşdur. Buna misal tağutların hökmlərini onun hökmündən üstün tutanları göstərmək olar.

**Allahın hökmü ilə hökm verməyənlərin qismləri:**

Əgər etiqad edərsə ki, Allahın hökmü ilə hökm vermək vacibdir, həm insanlar, həm də ölkə üçün bu daha yaxşıdır - bununla belə öz nəfsinə uyaraq vəzifə sevgisinə görə tağutların hökmü ilə hökm verərsə bu kiçik küfr və fasiqlikdir. Bu batil hökmlərlə hər hansı bir müsəlmanın haqqını tapdalasa, eyni zamanda zalım da olur. Onun dindən çıxaran böyük küfrə düşməsinə yol açmış olur.

Əgər tağut hökmlərini və batil qanunları Allahın hökmündən üstün tutub onlarla hökm verərək Allahın hökmünün yararsız olduğunu etiqad edərsə, bu dindən çıxaran böyük küfrdür. Allah Təalə buyurur: "***Onlar öz alimlərini və rahiblərini Allahdan başqa özlərinə rəblər seçdilər.***

# Beşinci məsələ

Kim Peyğəmbərin (Ona Allahın salavatı və salamı olsun) öyrətdiyi hər hansı bir hökmə nifrət edərsə, hətta ona əməl etsə də kafir olar.

**Bu məsələyə dəlil:**

Allah Təalə buyur***: "Bu ona görədir ki, onlar Allahın nazil etdiyinə nifrət etdilər, O da onların əməllərini puça çıxartdı***". Başqa ayədə: ***"Xeyr! Sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən çəkişmələrdə səni hakim hesab etməyincə, sonra da verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan tam təslim olmayınca iman gətirmiş olmazlar***". Başqa bir ayədə: ***" Allah kimi doğru yola yönəltmək istəsə, onun köksünü İslam üçün açar, kimi azdırmaq istəsə, onun köksünü, sanki o, göyə çıxırmış kimi daraldar və sıxıntılı edər. Allah iman gətirməyənləri beləcə rəzalətə salar***".

## Allah üçün sevmək və qəzəblənmək

Allah xətrinə sevmək, Allah xətrinə qəzəblənmək ən önəmli vaciblərdən sayılır. Hətta bu əməl imanın ən möhkəm bağlarından biridir.

**Allah üçün nəyi sevmək vacibdir?**

- Əməl edənləri sevmək. Məsələn peyğəmbərləri, elçiləri, mələkləri, səhabələri və hər bir tövhid əhlini sevmək.
- Allahın razı qaldığı əməli sevmək. Bura şəriətin gətirdiyi bütün əməllər daxildir. Məsələn tövhidə əməl etmək.
- Allahın sevdiyi məkanları sevmək. məsələn, Məkkə və Mədinəni sevmək.
- Alahın sevdiyi zamanları sevmək. Məsələn qədr gecəsini, gecənin son üçdə birini sevmək.

**Allah üçün nəyə qəzəblənmək vacibdir?**

| | | | |
|---|---|---|---|
| Allahın qəzəbinə gələn məkanlara. Məsələn Allahdan başqasına ibadət olunan məkanlar. | Allahın qəzəbinə gələn zamanlara. Məsələn günəşə ibadət olunan zamanlar. | Əməl sahiblərinə. Müşriklər, münafiqlər və şeytanlar. | Allahın qəzəbinə gələn hər bir əmələ. Bura şəriətin qadağan etdiyi hər bir əməl daxildir. Məsələn şirk. |

Əgər qadın ərinin çoxevliliyinə nifrət edərsə, küfr edirmi?
Təcrübə göstərir ki, qadın bu məsələdə şəriətin hökmünü inkar etmir, sadəcə olaraq ərinin onun üstünə ikinci zövcə almağını istəmir. Buna görə də onu qınamaq olmaz.

# Altıncı məsələ

Kim Allahın dinindən nəyisə: savabı, yaxud cəzanı – lağa qoyarsa kafir olar. Dəlil də Allahın bu kəlamıdır: "***De ki, siz Allaha, Onun ayələrinə, Onun Peyğəmbərinə istehza edirdiniz? Üzr gətirməyin, artıq iman gətirəndən sonra kafir oldunuz.***"

## İstehza edən:

### Mənası və hökmü

İstehza etmək lağa qoymaqdır. Dinə istehza edən, yaxud dini söyən kafir olur. Bu, dindən çıxaran böyük küfr, belə əməl sahibi isə əbədi cəhənnəmlikdir. Allah bizləri qorusun.

Bu istehzanı eşidən isə onlara etiraz etməli, yaxud da o məsclisi tərk etməlidir. O istehzanı görən, yaxud etiraz etmədən onu danışan da onu edənin hökmündədir. Allah Təalə buyurur: "***Kitabda sizə nazil etmişdir ki, Allahın ayələrinin inkar edildiyini və onlara istehza olunduğunu eşitdiyiniz zaman, (günahkarlar) başqa bir söhbətə keçməyincə onlarla bir yerdə oturmayın. Yoxsa siz də onların tayı olarsınız"***.

### Onun tövbəsi aşağıdakı şərtlərlə məqbuldur:

- Allaha layiqli şəkildə həmd və sənalar etməlidir;
- İstehzasından uzaq olduğunu bildirməlidir;
- Tövbə etdiyi əməllərindən uzaq olmalıdır.

Peyğəmbəri (Allahın salamı və salavatı onun üzərinə olsun) söyən kimsə tövbəsinə sadiq olarsa, Allah qatında tövbəsi qəbul olunar. Dünya cazası isə etdiyi küfrə görə rəhbər tərəfindən öldürülməkdir.

### Əgər sözdən küfr ehtimal olarsa, sahibi kafir olurmu?

Dediyi sözün təhlükəsi ona bəyan olunur, əgər tövbə edərsə, sərbəst buraxılır, tövbə etməzsə işi qazilərə və böyük alimlərə qaldırılır.

# Yeddinci məsələ

Sehr. Sehrin növlərindən biri iki nəfəri bir-birindən uzaqlaşdırmaq, yaxud birləşdirmək üçün olanıdır. Kim sehr edərsə, yaxud sehr etməyə razı olarsa, kafir olar. Dəlil də Allahın bu kəlamıdır: "***"Biz ancaq bir sınağıq, sən gəl kafir olma!"– deməmiş, onu heç kəsə öyrətmirdilər."***

## Sehr:

### Sehrbazın əlamətləri:

- Şəriətin icazə verdiyi ovsun qaydalarına müxalif olmaq;
- Tək-tək hərflərlə sözlər yazıb başa düşülməyən bir dildə danışmaq;
- Ulduz, ovuc və fincan falı ilə məşğul olmaq;
- Düyün vurub üfürmək;
- Bəxt bağlamaq, yaxud sevgi duası yazmaq;
- Xəstəyə şəriətə müxalif əməllər etməsini əmr etmək. Məsələn haram işlər etməsini, namaz qılmamasını, yaxud heyvanı kəsdikdə "bismilləh" deməməsini əmr edir;

-Xəstənin anasının adını soruşmaq;

-Qeybi bildiyini iddia etmək.

### Hökmü:

Sehr böyük küfrdür. Allah Təalə buyurur: ***"(Mələklər): 'Biz ancaq bir sınağıq, sən gəl kafir olma!'– deməmiş (onu) heç kəsə öyrətmirdilər***"

### Sehrbazın yanına getməyin hökmü

Yəni sehirbazın yanına gəlib onun yanında oturmaq, yanına kimisə göndərmək, yaxud məktub göndərmək, yaxud bürclər haqda danışan telekanalları, saytları və qəzetləri təqib etmək günahdır. Həmçinin əlin cizgilərini və fincanı oxumaq kimi əməllər də bura daxildir.

Hədisdə deyilir ki, sadəcə sehrbazın yanına getdiyi üçün həmin adamın qırx gün namazı qəbul olmaz. Falçının dediyini təsdiqləyən haqqında isə Peyğəmbər (Allahın salamı və salavatı onun üzərinə olsun) belə demişdir: "*Kim falçının yanına gəlib onun dediyinə inanarsa, Muhamməde nazil olana (Qurana) küfr etmişdir.*"

Elm sahibi falçıya etiraz etmək üçün onun yanına gedərsə, deyilən hökmlər ona aid olmaz.

**Nuşra:**

Nuşra, sehri müalicə etməkdir. Bu, iki qismə bölünür:

**Qadağan olan:**

Sehri, başqa sehr ilə müalicə etmək qadağandır. Bu haqda Peyğəmbər (Allahın salamı və salavatı onun üzərinə olsun) demişdir: "*O, şeytan əməlidir.*"

**İcazəli olan:**

Şərii ruqyə (ovsun), dərman və dua ilə edilən müalicələr icazəlidir.

## Sehri sehrlə müalicə etməyin icazəli olduğunu deyənlərə cavab:

1.Sehri sehrlə müalicə etmək Qurana, sünnəyə və səhabələrin yoluna müxalifdir;
2. Bunu etmək, Quran və sünnədə dualarla vəsf olunan müalicə üsulunu tərk etməklə nəticələnir;
3. Bu rəy sehrin və sehrbazların insanlar yanında güclənməsinə təkandır;
4. Haqq olmasına əmin olduğun Quran və sünnə ilə müalicəni tərk edib, güman edilən sehri müalicə üsulu seçmək doğru deyil;
5. Sehri sehrlə müalicə edəndə, həm sehrbaz, həm də sehr olunan adam şeytanlara yaxınlaşmaq üçün onların sevdiyi işləri etməlidirlər ki, onlar da sehri aradan qaldırsınlar;
6. Hədisdə deyilir ki, sehr olunan səbr edərsə, onun üçün cənnət vardır;
7. Sehri sehrlə müalicə edəndə ola bilsin sehr daha da güclənsin;
8. Peyğəmbər (Allahın salamı və salavatı onun üzərinə olsun) sehr olunduqda özünü sehrlə müalicə etmədi, əksinə şərii ruqyə ilə müalicə etdi.

# Səkkizinci məsələ

Müsəlmanlara qarşı kafirlərə yardım etmək. Dəlil Allahın bu kəlamıdır:"***Sizdən kim onları özünə dost tutsa, o da onlardandır. Həqiqətən Allah zalımları doğru yola yönəltməz***."

Müsəlmanlara qarşı kafirlərə yardım etmək:

Hər bir müsəlmana müşriklərdən və onların dinindən uzaq olmaq vacibdir. Eyni zamanda tövhid əhlini və onların dinlərini sevmək də müsəlmana vacibdir. Kim küfrü sevərsə, onunla razı olarsa və ona yardım edərsə, yaxud da müşriklərə yardım edərsə o dindən çıxaran böyük küfrü işləmişdir. Ümumi olaraq kafirlərə yardım etmək iki qismə bölünür:

Dindən çıxarmayan küfr:

Müşrikləri sevərək, yaxud müsəlmanlara nifrət edərək deyil, hər-hansı bir dünyavi məqsəd üçün bunu etmək.

Dindən çıxaran küfrdür:

Kafirləri sevərək, müsəlmanlara nifrət edərək kafirlərin müsəlmanlara qələbə çalmasını istəyərək müsəlmanlara qarşı kafirlərə yardım etmək.

# Doqquzuncu məsələ

Kim etiqad edərsə ki, Xıdır (Allahın ona salamı olsun) Musanın (Allahın ona salamı olsun) şəriətinə tabe olmadığı kimi, kimsə Peyğəmbərin (Ona Allahın salavatı və salamı olsun) şəritənə müxalif olub ona tabe olmaya bilər, artıq kafir olmuşdur.

Kim etiqad edərsə ki, bəzi insanlar Muhamməddin (Allahın salamı və salavatı onun üzərinə olsun) şəriətindən kənara çıxa bilər:

Bunu etiqad edən böyük küfrə düşmüşdür və alimlərin icması ilə islamdan çıxmışdır. Bu halda ondan tövbə etməsi tələb olunur və ona dəlillər izah olunur. Əgər tövbə edərsə bu yaxşıdır, etməsə öldürülür. Allah Təalə buyurur: "***Ey Rəsulum! De ki, ey insanlar! Mən sizin hamınıza göndərilmiş Allahın elçisiyəm***". Peyğəmbər (Allahın salamı və salavatı onun üzərinə olsun) demişdir: "*Əgər qardaşım Musa sağ olsaydı o da mənə tabe olardı.*"

Bura dəvət çatmış kitab əhli də daxildir. Qeyd etdiyimiz kimi onlar da müşriklərdir.

Xıdır Musanın (Allahın salamı onların üzərinə olsun) şəriətindən kənara çıxdımı? Cavab odur ki, bizim əlimizdə Xıdırın Musanın (Allahın salamı onların üzərinə olsun) şəriətindən kənara çıxması haqda dəlil yoxdur. Əgər çıxmış olsa da ola bilsin o Musanın qövmündən deyildi. Çünki hər bir peyğəmbər təkcə öz qövmünə göndərilirdi. Bizim peyğəmbərimiz (Allahın salamı və salavatı onun üzərinə olsun) isə bütün insanlara göndərilib. Ona görə də heç kimin onun şəriətindən kənara çıxmaq haqqı yoxdur.

# Onuncu məsələ

Bu etiqadları zarafatla, ciddi, yaxud qorxaraq edənlər arasında fərq yoxdur. Burada yalnız məcbur edilən istisnadır. On məsələnin hamısı ən təhlükəli və ən çox baş verən məsələlərdir. Müsəlman bunlardan çəkinməli və özünü bunlara düşməkdən qorumalıdır. Allahın qəzəbinə və şiddətli əzabına səbəb olan hər bir şeydən Allaha sığınırıq. Allahın salamı və salavatı Muhamməddin üzərinə olsun.

## Allahın dinindən öz döndərmək:

Peyğəmbər (Allahın salamı və salavatı onun üzərinə olsun) buyurmuşdur: "*Allah kimin üçün xeyir istəsə onu dində fəqih edər*". Allah kimin üçün xeyir istəməzsə ondan üz döndərər və o da Allahın dinini öyrənməkdən qafil qalar. Allah Təalə buyurur: ***"Rəbbinin ayələri ilə öyüd-nəsihət verildikdən sonra onlardan üz döndərən kəsdən daha zalım kim ola bilər?! Biz, şübhəsiz ki, gwnahkarlardan intiqam alacağıq!"***. Ayədə keçən günahkarlar cəhənnəm əhlidir. Allaha sığınırıq.

## Üz döndərməyin hökmü:

Əgər Peyğəmbərdən (Allahın salamı və salavatı onun üzərinə olsun) üz döndərərsə onu nə təsdiq edib, nə təkzib edərsə, nə sevib, nə də düşmənçilik bəsləməzsə və onun gətirdiyini dinləmək istəməzsə bu dindən çıxaran böyük küfrdür. Allah Təalə buyurur: ***"Onlara: 'Allahın nazil etdiyinə (Qurana) və Peyğəmbərə tərəf gəlin!' – deyildiyi zaman, münafiqlərin səndən büsbütün üz döndərdiklərini görərsən."*** Başqa ayədə: ***"Kim öz Rəbbinin zikrindən üz döndərərsə, O, həmin şəxsi şiddətli bir əzaba məruz qoyar."***

**İslamdan çıxaran məsələlərdə aşağıdakı qism insanlar eynidir:**

**Qorxan:**
Bu o kəsdir ki, yalandan iddia edir ki, onun malına yaxud vəzifəsinə zərər toxunmaqdan qorxduğu üçün bu küfri işləyib, amma buna məcbur edilməyib. Allah Təalə buyurur: ***"Adamlar arasında elələri də vardır ki, 'Biz Allaha iman gətirdik!' – deyər, Allah yolunda bir əziyyət gördükdə isə insanların (kafirlərin) fitnəsini Allahın əzabı kimi qəbul edərlər. Əgər Rəbbindən (möminlərə) bir zəfər gəlsə, mütləq: 'Biz də sizinləyik!' – deyərlər. Məgər Allah məxluqatın (mələklərin, insanların və cinlərin) ürəklərində olanları (imanı, küfrü və nifaqı) bilmirmi?!"***

Qəsdən söyləyən
Bu o insandır ki bu əməli qəsdən edir və heç bir üzrü yoxdur.

Zarafatla söyləyən
Bu o insandır ki, küfrü söyləyir sonra zarafat etdiyini iddia edir.

## İkrah:

Kim dindən çıxaran əməllərin birinə məcbur (ikrah) edilərsə, bununla kafir olmur. Üzürlü ikrahın şərtləri bunlardır:
1-Həqiqi məcbur edilsin. Məcbur edilməyən, qorxan və qınaqdan qurtulmaq üçün edən üzürlü deyil;
2- Həddi aşmamalıdır. Məsələn küfr olan bir söyüşə məcbur edilərsə və birdən artığını söyərsə artıq bu küfrdür. Çünki, o birinə məcbur edilib;
3- Gücü yetən qədər tövriyyə işlətsin və bacardıqca açıq aydın küfrdən çəkinsin;
4- Qəlbi imanla dolu olsun. Yəni dili ilə desə də qəlbində iman olsun;
5-Məcbur edildiyi iş başqasının haqqına girmək, yaxud fitnə fəsad törətmək və ya insanları azdırmaq kimi işlərdə olmasın.

## Önəmli qeydlər

***Birinci:*** Müəllifin bu kitabdan məqsədi ümməti təkfir etmək deyil. Məqsəd insanların bu məsələləri öyrənib bundan çəkinmələri və bu etiqad və əməllərdən qorxmalarıdır. Əgər qorxarlarsa o zaman doğru iman üzərində olarlar və şiddətli əzabdan qurtulmuş olarlar. Eyni zamanda başqalarını da çəkindirmələri vacibdir. Çünki bu məsələlər çox təhlükəli məsələlərdir, onları öyrənib onlardan qorunmaq lazımdır.

***İkinci:*** Müsəlmanın şirkdən qorxması şərii elm öyrənməklə olur. Peyğəmbər (Allahın ona salamı və salavatı olsun) buyurmuşdur: ***"Allah kimin üçün xeyir istəsə onu dində fəqih edər."*** Dini başa düşmək ən önəmli və ən acib məsələlərdəndir. Çünki, müsəlman bununla özünü şirkdən, bidətdən və günahlardn qorumuş olur. İnsan Rəbbini nə qədər çox tanıyarsa, o qədər də əməllərinə və hərəkətlərinə diqqqət edər. İnsan elmdə nə qədər yüksələrsə, Allaha olan ixlası da bir o qədər artar və imanı da kamilləşər. Bəzi alimlər demişlər: “Elmi ilk başlayanda Allahdan başqası üçün öyrənməyə başladıq, lakin elm bizi Allah üçün öyrənməyə yönəltdi.”

***Üçüncü:*** Müəyyən bir şəxsi təkfir etmək üçün mütləq onun bu dindən çıxaran məslələrdən birinə düşməsi, ona hüccətin qaldırılması və onda təkfirə mane olan şeylərin aradan qalxması lazımdır. Təkfir müsəlmanların başçısının və yaxud onu əvəz edən qazi və alimlərin işidir. Amma sıravi insanların bu işə girişməsi doğru deyildir.

***Dördüncü:*** Müəllif kitabını bu dua ilə tamalayır: (Allahın qəzəbinə və şiddətli əzabına səbəb olan hər bir şeydən Allaha sığınırıq). Bu da onun niyyətinin xoş olmasından və oxucu ilə yumşaq davranmasından irəli gəlir. Bu onun bütün kitablarında tutduğu yoldur. Allah onu bağışlasın və savabını bol etsin.

# Özünü sına

***Aşağıdakı suallara boş yerləri doldurmaqla cavab ver:***

1. Alimlər nə üçün kitablarına Allahın adı ilə başlayırlar?

1- ..........................................................................

2- ..........................................................................

3- ..........................................................................

4- ..........................................................................

2. İslamdan çıxaran etiqadlar nə deməkdir?

......................................................................................

......................................................................................

3. Nə üçün alimlər hərdən "islamdan çıxaran", bəzən "batil edən" kəlimələrini işlədirlər?

......................................................................................

......................................................................................

4. İslamdan çıxaran bu etiqadlar alimlər arasında ittifaq edilmiş bir məsələdirmi?

......................................................................................

......................................................................................

5. Bu etiqadların dəqiq sayı varmı?

-dəqiq sayı var; -dəqiq sayı yoxdur; - ümumi sayı var amma təfsilatlı sayı bilinmir

6. Nə üçün müəllif (Allah ona rəhmət etsin): onların sayı ondur- demişdir?

......................................................................................

......................................................................................

7. Əgər Quran və sünnədə say zikr olunarsa o say məqsədlidirmi? Ona əlavə etmək olarmı, yoxsa yox?

........................................................................................

........................................................................................

8. Nə üçün bəzi hallarda say zikr olunur, amma o say məqsədli olmur?

........................................................................................

........................................................................................

9. Məqsədli olan saylara misal gətir

........................................................................................

........................................................................................

10. Məqsədli olmayan saylara misal gətir

........................................................................................

........................................................................................

11. Müəllif bu etiqadların ondan çox olduğu görüşdədirmi?

........................................................................................

........................................................................................

12. Bu müəllifin hansı sözündən götürülür?

........................................................................................

........................................................................................

13. İslamdan çıxaran etiqadları saymaq mümkündürmü?

........................................................................................

........................................................................................

14. Bu etiqadları necə saymaq olar?

1-..................................................................................

2- ..................................................................................

3- ..................................................................................

4- ............................................................................

15. Nə üçün bu mətni keçiririk?

............................................................................

............................................................................

16. Müəllifdən başqa alimlər də bu mövzu haqda kitab yazıblarmı?

............................................................................

............................................................................

17. Bu etiqadlarda fellə feli edən arasında fərq qoyulurmu?

............................................................................

............................................................................

18. Bu fərqi qoymaqda səbəb nədir?

............................................................................

............................................................................

19. Müəllifin bu etiqadları zikr etməkdə məqsədi müəyyən şəxsləri təkfir etməkdirmi?

............................................................................

............................................................................

20. Dindən çıxaran bu etiqadları öyrənənə nə etməsi lazımdır?

............................................................................

............................................................................

21. Müəllif (Allah ona rəhmət etsin) burda hansı şirki qəsd edir?

............................................................................

............................................................................

22. Biz, böyük şirklə kiçik şirk arasında fərq görürürkmü?

..................................................................................

..................................................................................

..................................................................................

..................................................................................

..................................................................................

..................................................................................

23. Böyük şirk edənin tövbəsi qəbuldurmu? Nə zaman qəbul deyil?

..................................................................................

..................................................................................

24. Kiçik şirk böyük günahlardan daha böyükdür?

..................................................................................

..................................................................................

25. Böyük günahların tərifində qayda nədir?

..................................................................................

..................................................................................

26. Böyük günahlar bəlli bir sayla sayıla bilinirmi?

..................................................................................

..................................................................................

27. Böyük günah sahibinin hökmü nədir? Onu sevmək lazımdır yoxsa ona nifrət etmək lazımdır?

..................................................................................

..................................................................................

..................................................................................

..................................................................................

28. Böyük günah sahibi ilə oturub durmaq olarmı?

..................................................................................

..................................................................................

29. Böyük günahların dərəcələri varmı? Buna dəlil nədir?

..................................................................................

..................................................................................

30. Böyük günahlar saleh əməllərlə silinirmi, yoxsa mütləq tövbə etmək lazımdır?

..................................................................................

..................................................................................

31. Haramların neçə qismi vardır?

..................................................................................

..................................................................................

32. Böyük şirkin qismləri hansılardır?

1-..........................................................................

2-..........................................................................

3-.........................................................................

4-..........................................................................

33. Kəsilən ətin qismləri hansılardır?

1-..........................................................................

2-..........................................................................

3-.........................................................................

34. Nə zaman kəsilən ətin hokmü böyük şirk olur?

..................................................................................

..................................................................................

35. Şəfaətin qismləri hansılardır?

1-.........................................................................

2-........................................................................

3-.......................................................................

36. Təvəkkül nədir?

...............................................................................
...............................................................................

37. Təvəkkül neçə qismə bölünür?

1-........................................................................

2-........................................................................

3-.......................................................................

38. "Filankəsə təvəkkül etdim" yaxud "Allaha sonra filankəsə təvkkül etdim" demək doğrudurmu?

- Doğrudur -Doğru deyil

39. Necə demək daha doğru sayılır?

...............................................................................
...............................................................................

40. Müşriklərin küfrünə dəlil nədir? Kitab əhli də müşriklərdən sayılırmı?

...............................................................................
...............................................................................

41. Bu onlara verdiyimiz əhdi pozmaq anlamına gəlirmi?

...............................................................................
...............................................................................

42. Əhd verilən müşriklərlə davranışda insanlar neçə qismə bölünür?

1-........................................................................

2-........................................................................

3-.......................................................................

43. Allahın hökmü ilə hökm verməyənlər hasnılardır?

..............................................................................

..............................................................................

44. Allah üçün sevməyin hokmü nədir?

..............................................................................

..............................................................................

45. Kimləri Allah üçün sevib kimlərə Allah üçün nifrət edirik?

..............................................................................

..............................................................................

46. İstehza etmək küfrün hansı növündən sayılır?

..............................................................................

..............................................................................

47. İstehza edənin tövbəsi qəbuldurmu? Onun tövbəsinin hansı şərtləri vardır?

1-.......................................................................

2-......................................................................

3-......................................................................

48. Peyğəmbəri (Allahın salamı və salavatı onun üzərinə olsun) söyənin hökmü nədir?

..............................................................................

..............................................................................

49. Bu küfrü eşidənin hokum nədir?

..............................................................................

..............................................................................

50. Sehrbazın kafir olmasına dəlil nədir?

..............................................................................

..............................................................................

51. Sehrbazın əlamətləri hansılardır?

..........................................................................................
..........................................................................................

52. Sehrbazın yanına gəlməyin hökmü nədir?

..........................................................................................
..........................................................................................

53. Onun yanına gəlmək necə olur?

..........................................................................................
..........................................................................................

54. Nuşranın qismləri hansılardır?

1-...................................................................................

2-...................................................................................

55. Sehri sehrlə müalicə etməyin icazəli olduğunu deyənlərə necə cavab verək?

1-...................................................................................

2-...................................................................................

3-..................................................................................

4-...................................................................................

5-...................................................................................

6-..................................................................................

7-..................................................................................

8-..................................................................................

56. Müşriklərə yardım etməyin hökmü nədir?

..........................................................................................
..........................................................................................

57. Kiminsə Muhammədin (Allahın salamı və salavatı onun üzərinə olsun) şəriətindən kənara çıxmaq haqqı varmı?

.............................................................................

.............................................................................

58. Xıdır Musanın (Allahın salamı onların üzərinə olsun) şəriətindən kənara çıxdımı?

.............................................................................

.............................................................................

59. Dindən üz döndərməyin hökmü nədir?

.............................................................................

.............................................................................

60. Müəllifin qəsd etdiyi qorxmaq nə deməkdir? Bundan məqsəd ikrah altında olub məcbur ediləndirmi?

.............................................................................

.............................................................................

61. Məcbur edilməyin şərtləri hansılardır?

1-.......................................................................

2-.......................................................................

3-......................................................................

4-.......................................................................

5-.......................................................................

62. Müəllifin kitabı dua ilə tamamlamasının anlamı nədir?

.............................................................................

.............................................................................

63. Müsəlmanın şirkdən qorxması necə olur?

.................................................................................

.................................................................................